


# GÜNDOĞAR

25 noyabr 2015-ci il – № 31-32-33-34 (6584)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi


# PARLAMENT SEÇKİLƏRİ HƏR YERDƏ AZAD, DEMOKRATİK VƏ ŞƏFFAF ŞƏRAİTDƏ KEÇDİ

## Noyabrın 24-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2015-ci il noyabrın 1-də Milli Məclisə keçirilmiş seçkilərin yekunlarının yoxlanılması və təsdiq olunmasına dair məsələyə baxıb

AZƏRTAC xəbər verir ki, iclasa sədrlik edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Konstitusiyasının 86-cı, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 54-cü maddələrinə müvafiq olaraq, xüsusi konstitusiya icraatı qaydasında Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə işə baxan Plenumun tərkibini elan etdi.

Məruzəçi hakim Kamran Şəfiyev çıxış edərək bildirdi ki, Mərkəzi Seçki Komissiyası Milli Məclisə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi üçün səsvermənin ümumi yekunları haqqında MSK-nın, habelə dairə seçki komissiyalarının protokollarını və onlara əlavə edilən sənədləri noyabrın 18-də Konstitusiya Məhkəməsinə təqdim edib.

Hakim Rafael Qvaladzenin Mərkəzi Seçki Komissiyasının Konstitusiya Məhkəməsinə təqdim etdiyi yekun protokolunun, habelə dairə seçki komissiyalarının protokollarının (onlara əlavə edilən sənədlərlə birlikdə) yoxlanılmasının nəticələrinə dair məruzələri dinlənildi.

Sonra MSK-nın sədri Məzahir Pənahov parlament seçkilərinə hazırlıq dövründən başlayaraq görülən işlər barədə ətraflı məlumat verdi.

Bakı Dövlət Universiteti hüquq fakültəsinin konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirov, həmin kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru Sübhan Əliyev ekspert rəyləri ilə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşlarından ibarət mütəxəssislər qrupunun tərtib etdiyi arayışla Ulduzə Həmidova çıxış etdilər.

Çıxış edənlər hakimlərin suallarını cavablandırdılar.

Sonra Konstitusiya Məhkəməsinin Plenumunun üzvləri gündəlikdəki məsələ ilə əlaqədar qərar qəbul etmək üçün müşavirə otağına keçdilər.

Müşavirədən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Plenumun qərarını elan etdi. Qərara əsasən, Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini təsdiq etdi.



## Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclası

Noyabrın 24-də Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclası Milli Məclis Aparatının rəhbəri Səfa MİRZƏYEV açaraq dedi:

-Zati-aliləri, möhtərəm cənab Prezident.

Sizi Milli Məclisdə salamlamaqdan qürur duyuruq, Milli Məclisə xoş gəlmisiniz.

Hörmətli deputatlar, hörmətli qonaqlar. Xanımlar və cənablar.

Azad, ədalətli və şəffaf seçkilər nəticəsində formalaşmış beşinci çağırış Milli Məclis fəaliyyətinə başlayır. Ulu öndər, müasir müstəqil Azərbaycan dövlətinin yaradıcısı böyük Heydər Əliyevin bizə miras qoyduğu dövlətçilik strategiyası uğurla yerinə yetirilib. Bu seçkilər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasətin yeni, böyük qələbəsi olmuşdur.

Zati-aliləri, gördüyünüz əzəmətli işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk, gələcək fəaliyyətinizdə böyük uğurlar arzulayırıq.

Hörmətli deputatlar, Milli Məclisə seçilməyiniz münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm. Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, Milli Məclisin ilk iclasını ən yaşlı deputat aparır. Bu şərəfli missiya Milli Məclisin deputatı, hörmətli Fəttah Heydərova nəsib olub.

Hörmətli Fəttah müəllim, xahiş edirəm, iclası başlayasınız.

İclasa sədrlik edən Fəttah Heydərov beşinci çağırış Milli Məclisin ilk iclasını açıq elan etdi.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Fəttah Heydərov dedi:

- Möhtərəm cənab Prezident, Sizi səmimi qəlbdən salamlayır, Sizə möhkəm cansağlığı, uzun ömür, müstəqil Azərbaycanımızın və bütövlükdə Azərbaycan xalqının rifahı naminə gördüyünüz böyük işlərdə, Heydər Əliyev yolunun davam etdirilməsində yeni-yeni uğurlar və qələbələr arzulayırıq.

Fəttah Heydərov bildirdi ki, Daxili Nizamnaməyə əsasən yeni çağırış Milli Məclisin ilk iclasında seçilən deputatların siyahısı oxunmalı, Hesablayıcı Komissiya və Milli Məclisin sədri seçilməlidir.

Sonra F.Heydərov beşinci çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxudu.

Prezident İlham Əliyev beşinci çağırış Milli Məclisin birinci iclasında nitq söylədi.

Deputatlar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən iclasın sədri Fəttah Heydərov dövlətimizin başçısını əmin etdi ki, qarşıya qoyulan bütün məsələlər Milli Məclis tərəfindən uğurla yerinə yetiriləcək.

İclasın sədri Hesablayıcı Komissiyanın tərkibinə namizədlərin adlarını elan etdi.

Milli Məclisin Daxili Nizamnaməsinə əsasən namizədlər bütövlükdə səsə qoyularaq təsdiq edildilər.

Sonra Milli Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq parlamentin sədri vəzifəsinə deputat Oqtay Əsədovun namizədliyi irəli sürüldü.

Oqtay Əsədov dedi:

-Zati-aliləri möhtərəm cənab Prezident.

Hörmətli deputatlar, xanımlar və cəablar.

Əvvəlcə icazə verin, Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə namizədliyimi irəli sürmüş Yeni Azərbaycan Partiyasının Sədri möhtərəm cənab İlham Əliyevə və deputat həmkarlarıma öz dərin minnətdarlığımı bildirim.

Mən Milli Məclisin qarşısında duran başlıca vəzifəni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən uzaqgörən və müdrik dövlət siyasətinin parlament meyarını etibarlı surətdə təmin etməkdə və xalqın mənafelərini dəstəkləməkdə görürəm. Hesab edirəm ki, Milli Məclis cənab Prezidentin apardığı daxili və xarici siyasəti həmişə dəstəkləyəcək, beynəlxalq təşkilatlar, eləcə də dünya ölkələrinin parlamentləri ilə əlaqələrin inkişafına öz töhfəsini verəcək.

Sizi əmin etmək istəyirəm ki, əgər Milli Məclis mənə etimad göstərərsə, bütün bilik və bacarığımı sərf edərək, bu şərəfli missiyanı layiqincə yerinə yetirməyə çalışacağam.

Diqqətinizə görə təşəkkür edirəm.

Hesablayıcı Komissiyanın sədri İsa Həbibbəyli Milli Məclis sədrinin seçilməsi ilə bağlı səsvermənin qaydaları haqqında məlumat verdikdən sonra gizli səsvermə keçirildi.

Səsvermə başa çatdıqdan sonra İsa Həbibbəyli bildirdi ki, 124 deputat Oqtay Əsədovun lehinə səs verib. Beləliklə, Oqtay Əsədov Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi.

Sonra Milli Məclis sədrinin müavinləri seçildi.

Deputat Ziyafət Əsgərov Milli Məclis sədrinin birinci müavini, Bahar Muradova və Valeh Ələsgərov sədrin müavinləri seçildilər.

Prezident İlham Əliyev parlamentin sədrini və müavinləri təbrik etdi, Milli Məclisə qarşıdakı fəaliyyəti dövründə uğurlar arzuladı.

Fasilədən sonra Milli Məclis komitələrinin sədrləri seçildi.

Deputat Əli Hüseynli Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət Əsgərov müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Ziyad Səmədzadə iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Valeh Ələsgərov təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Eldar İbrahimov aqrar siyasət komitəsinin, Hadi Rəcəbli əmək və sosial siyasət komitəsinin, Arif Rəhimzadə regional məsələlər komitəsinin, İsa Həbibbəyli elm və təhsil komitəsinin, Rafael Hüseynov mədəniyyət komitəsinin, Bahar Muradova insan hüquqları komitəsinin, Səməd Seyidov beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədrləri təsdiq edildilər.

Beşinci çağırış Milli Məclisdə yeni komitələr də fəaliyyətə başladı.

Əhliman Əmiraslanov səhiyyə komitəsinin, Aqiyə Naxçıvanlı ailə, qadın və uşaq məsələləri komitəsinin, Siyavuş Novruzov ictimai birliklər və dini qurumlar komitəsinin, Fuad Muradov isə gənclər və idman komitəsinin sədrləri təsdiq olundular.

Bununla da beşinci çağırış Milli Məclisin ilk iclası başa çatdı.

## Seçkilərin nəticələri ölkə vətəndaşlarının dövlət başçısına, Yeni Azərbaycan Partiyasına olan böyük inamlarını bir daha əyani şəkildə nümayiş etdirdi

Noyabrın 1-də ölkəmizdə Milli Məclisə keçirilən seçkilər demokratiya yolunda daha bir uğurlu addımımız oldu. Bu, Azərbaycanın siyasi tarixinə demokratik və azad seçkilər kimi düşdü. Dünyanın bir sıra beynəlxalq təşkilatları, aparıcı televiziya kanalları, KİV-lər seçkilərin nəticələrini yüksək qiymətləndirdilər.

Seçkilərdə 767 namizəd iştirak edib. Səsvermənin gedişini 40 təşkilatdan 503 beynəlxalq və 66 mindən çox yerli müşahidəçi diqqətdə saxlayıb. “ELS” Müstəqil Araşdırmalar Mərkəzi, “RƏY” Monitorinq Mərkəzi, Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiə Mərkəzi Fransanın “Orinion Way” Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-ın “AYF & Assosiates Inc” təşkilatı ilə birgə “exit-roll” həyata keçiriblər. “Exit-roll”ların nəticələri ilə Mərkəzi Seçki Komissiyasının nəticələrinin üst-üstə düşməsi seçkilərin şəffaf, demokratik keçirilməsinə, qanun pozuntularına yol verilməməsinə əyani sübutdur.

Qeyd edək ki, 1700 nəfərdən çox vətəndaş tərəfindən Milli Məclis deputatlığına namizəd olmaq üçün müraciət olunmuşdu. Bunlardan namizədliyi qeydə alınmış 767 nəfər şəxs deputat olmaq üçün mübarizəyə qoşulmuşdu. Ölkə üzrə qeydə alınmış 5 milyon 198 min 658 nəfərdən 2 milyon 897 min nəfərdən çoxu səsvermədə iştirak etmişdir. Bu da seçkidə seçki fəallığının 55,7 faiz olduğunu göstərir. Əvvəlki parlament seçkilərindəki göstəricidən isə bu, 6 faizə qədər yüksəkdir. Seçki məntəqələrində proseslərin əvvəldən axıradək izlənməsi məqsədilə 1000 vebkamera quraşdırılmışdı ki, bununla da internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifələrinə daxil olmaqla heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini arası kəsilmədən canlı şəkildə müşahidə edə bilmişlər.

Beynəlxalq təşkilatların nümayəndələri mətbuat konfranslarında respublikamızdakı dincliyi, sabitliyi qeyd edərək Azərbaycanın demokratik yolla uğurla irəlilədiyini, inkişaf etdiyini, seçkilərin də buna müvafiq olaraq qayda-qanun çərçivəsində keçirildiyini dönə-dönə vurğulamışlar. Eyni zamanda ölkəmizdə akkreditasiyadan keçmiş 27 beynəlxalq kütləvi informasiya vasitələrinin nümayəndələri də bu fikirdə olduqlarını seçkilərin nəticələrilə bağlı çap etdikləri obyektiv informasiyaları ilə diqqətə çatdırmışlar.

Parlament seçkiləri tarixə növbəti demokratik ümumxalq səsverməsi kimi daxil oldu. Səsvermənin nəticələri bir daha əyani şəkildə göstərdi ki, ölkə əhalisinin böyük əksəriyyəti Yeni Azərbaycan Partiyasını dəstəkləyir. Bu böyük dəstək isə ölkə vətəndaşlarının Prezidentə, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevə olan inamından, etimadından irəli gəlir.

# QÜRURLA QEYD OLUNAN TARİXİ GÜNLƏRİMİZ



Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan edib. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa edib. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilib.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamına əsasən Bakının Bayıl qəsəbəsində dünyanın ən hündür bayraq dirəyi inşa edilib və Dövlət bayrağı meydanı salınıb.

2009-cu il noyabrın 17-də Azərbaycan Prezidenti Ilham Əliyev "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-unu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib. Həmin gün əmək Məcəlləsinin 105-ci maddəsinə edilən əlavəyə əsasən, bu bayram qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.

2010-cu ilin sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Ilham Əliyev tərəfindən Dövlət Bayrağı Meydanının — Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olmuşdur.

Ən uca zirvədə dalğalanan Azərbaycan bayrağının hündürlüyü 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri isə 1,09 metrdir. Qurğunun ümumi kütləsi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, kütləsi isə təqribən 350 kiloqramdır. Ginnes Dünya Rekordları Təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan Dövlət Bayrağı Dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.



Azərbaycan Respublikasının Konstitusiya günü — Azərbaycan Respublikasının əsas qanununun — Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edildiyi gündür. Hazırkı Konstitusiya 12 noyabr 1995-ci ildə ümumxalq referendumu əsasında qəbul edilmişdir. Bu, Azərbaycan Respublikasının müstəqillik bərpa edildikdən sonra ilk, ümumilikdə isə dördüncü Konstitusiyasıdır. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdi. Azərbaycanın Konstitusiya quruluşunun tarixi isə SSRI dövrünə təsadüf edir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra yeni Konstitusiya layihəsi üzərində ciddi iş başlandı. 1994-cü ildə Prezident Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası fəaliyyətə başladı və layihə 1995-ci ildə ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu.

Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasını təşkil edən ilk Konstitusiya 5 bölmə, 12 fəsil və 158 maddədən ibarətdir. Bu Konstitusiyaya ilk əlavə və dəyişiklik 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 18 mart 2009-cu ildə referendum yolu ilə edilib.

1996-cı il fevralın 6-da Prezident Heydər Əliyevin sərəncamı ilə noyabrın 12-i Konstitusiya Günü elan olunub.

Azərbaycanda ilk konstitusiya məhkəmə nəzarəti orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi isə 1998-ci il iyul ayının 14-də yaranıb.

Xatırladaq ki, Konstitusiya günü bayram kimi qeyd olunsa da, noyabrın 12-si iş günüdür.

**Azərbaycan Bayrağı Günü, Konstitusiya Günü və Milli Dirçəliş Günü respublikamızın hər yerində olduğu kimi rayonumuzda da təntənə ilə qeyd olunmuş, bu münasibətlə bir-birindən maraqlı tədbirlər keçirilmişdir. Həmin günlərdə rayon rəhbərliyi, rayonun rəhbər işçiləri, ictimaiyyətin nümayəndələri ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılmış abidəsi önünə gələrək oraya tər çiçəklər düzmüş, özlərinin ulu öndərə dərin ehtiramlarını ifadə etmişlər.**

**Bayram tədbirləri rayon mərkəzi ilə yanaşı qəsəbə və kəndlərdə, ayrı-ayrı idarə və müəssisələrdə, təhsil ocaqlarında da təşkil edilmiş, bu tarixi günlər hər yerdə dərin sayğı və ehtiram hissi ilə qeyd olunmuşdur.**

## Yeni Azərbaycan Partiyasının yaradılmasından 23 il ötür

# HEYDƏR ƏLİYEV DÜHASINDAN GÜC ALAN PARTİYA BU GÜN DƏ İNAMLA İRƏLİLƏYİR

23 il tarixi olan Yeni Azərbaycan Partiyası o vaxt meydana müxalifət partiyası kimi gəlmişdi. Bunun da tarixi səbəbləri, kökləri vardı. 1992-ci ildə hakimiyyətə gələn AXC öz səriştəsizliyi, səhv addımları üzündən ölkədə sözün əsl mənasında hakimiyyətsizlik yaranmışdı ki, bunun da əsas ağırlığını, ağrı-acılarını xalq çəkməli olmuşdu. Vəziyyətin getdikcə çətinləşməsi, mürəkkəbləşməsi böyük çətinliklərlə əldə olunmuş müstəqilliyimizi də məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.



Məhz belə ağır, mürəkkəb bir dövrdə Azərbaycanın, xalqımızın gələcəyini düşünən ziyalılar ayağa qalxaraq haqq səslərini ucaltmağa başlamışdılar. Onlar aydın həkildə başa düşür, dərk edirdilər ki, ölkəni bu ağır vəziyyətdən, bəladan yalnız böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev kimi güclü, müdrik şəxsiyyət xilas edə bilər. Bunun üçün isə ilk növbədə bu dahi insana inam gətirən on minlərlə, yüz minlərlə insanın Heydər Əliyevin ətrafında sıx, monolit qüvvə kimi birləşməsi tələb olunurdu. Bunu isə yalnız möhkəm dayaqları olan siyasi qurum edə bilərdi ki, Yeni Azərbaycan Partiyasının yaranması, fəaliyyətə başlaması məhz bu zərurətdən doğdu. 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının yarandığı elan olunanda respublikanın hər yerində bu xəbər böyük razılıq hissilə qarşılandı, xalqın, millətin sabaha olan xoş inamı, ümidləri yenidən özünə qayıtdı.

Odun, alovun içindən doğaraq böyük çətinliklə yaranan bu partiya fəaliyyətə başladığı ilk gündən sabitlik, xoş güzəran arzusu ilə yaşayan xalqın mənafelərinə xidmət etməyə başladı. Ən çətin məqamlarda belə yolundan dönmədi. İndi partiyanın ölkəmizdə ən güclü, möhtəşəm bir siyasi quruma çevrilməsi də bununla bağlıdır. Öz ətrafında yüz minlərlə ən yetkin, qabaqcıl insanları birləşdirən Yeni Azərbaycan Partiyası qarşıya qoyduğu məqsədlərə doğru daim inamla irəliləyir, bütün sahələrdə dövlətimizi, dövlətçiliyimizi dəstəkləyir, mütəşəkkillik nümunələri göstərir.

Xalqımızın, dövlətimizin, müstəqilliyimizin taleyinin həll olunduğu həmin çətin günlərdə rayonumuzun uzaqgörən ziyalıları da ölkədə gedən proseslərdən kənarda qalmadılar, ulu öndər Heydər Əliyevi qətiyyətlə müdafiə etdilər, partiyanın rayon təşkilatının yaradılması üçün var qüvvələrini sərf etdilər, bu yolda bütün çətinliklərə mərdliklə dözdülər. 1993-cü ilin 28 mayı Neftçalanın tarixinə qızıl hərflərlə yazıldı. Həmin gün keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının yaradılması haqqında tarixi qərar qəbul olunması unudulmazdır.



Artıq Yeni Azərbaycan Partiyasının yaradılmasından 23, rayon təşkilatının yaradılmasından isə 22 il ötür. Bu illər ərzində rayon təşkilatı da durmadan inkişaf edərək möhkəmlənmiş, güclü siyasi qüvvəyə çevrilmişdir. İndi respublikamızın hər yerində olduğu kimi rayonumuzda da Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü böyük sevinclə, qürur hissi ilə qeyd olunur. Bu münasibətlə rayonumuzda keçirilən tədbir də yaddaqalan oldu.

Əvvəlcə partiya üzvləri və qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər, partiyanın yaradıcısına özlərinin dərin ehtiramlarını bildirdilər.

Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi. Dəyirmi masa ətrafında təşkil olunan tədbiri Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Anar Cəfərov açaraq ilk öncə siyasi həmkarlarını əlamətdar gün — Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü münasibətilə ürəkdən təbrik etdi, onlara sevinc dolu günlər arzuladı, partiyanın keçdiyi yol, əldə olunan uğurlar barədə tədbir iştirakçılarına geniş məlumat verdi. Anar müəllimin konkret faktlara, dəlillərə söykənmiş çıxışı böyük maraqla dinlənildi və alqışlandı.

Tədbirdə iştirak edən YAP rayon təşkilatı qadınlar şurasının sədri Gültəkin xanım Sadıqovanın da deməyə sözü çox idi. Ona görə ki, partiyanın rayon təşkilatının üzvlərinin böyük bir hissəsini qadınlar təşkil edir. Partiyanın uğurlarında, rayonumuzun ümumi inkişafında bu qadınların da zəhmət payları az deyildir. Onların fəaliyyətindən fərəh hissi ilə söhbət açan Gültəkin xanım əminliklə vurğuladı ki, qadınlar bundan sonra da ulu öndər Heydər Əliyevin işıqlı ideyalarına sadiq qalacaq, partiyanın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün səylərini əsirgəməyəcəklər.

YAP rayon təşkilatı gənclər birliyinin sədri Ülvi Fərzəliyev, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov, rayon mərkəzi xəstəxanasının həkimi Svetlana Cəfərova və neçə-neçə başqaları da öz çıxışlarında partiyanın yaranması zərurətindən, keçdiyi inkişaf yollarından, cəmiyyətimizdəki rolundan danışdılar, rayon təşkilatına bundan sonrakı fəaliyyətində uğurlar arzuladılar.

# NOYABRIN 1-DƏ — MİLLİ MƏCLİSƏ KEÇİRİLƏN SEÇKİLƏRDƏ RAYONUMUZUN SAKİNLƏRİ DƏ FƏAL İŞTİRAK ETDİLƏR

Noyabrın 1-i başqa günlərdən xeyli dərəcədə fərqlənirdi. Həmin gün qaynarlıq, fəallıq həmişəkindən daha çox nəzərə çarpırdı. Çöhrələrdəki sevinc, fərəh də açıq-aydın hiss olunurdu. Bunun səbəbi aydın idi. Noyabrın 1-i Milli Məclisə seçkilər günü olduğundan adamlar da yuxularından erkən oyanmışdılar. Yaşayış binalarının pəncərələrindən süzülən işıqlar bunu əyani şəkildə göstərirdi. Təbliğat, təşviqat kampaniyası hər yerdə aydın, şəffaf keçdiyindən yəqin seçicilər də öz seçimlərini etmiş, kimə, hansı namizədə səs verəcəklərini dəqiq müəyyənləşdirmişdilər.

Biz də rayon mətbuatı olaraq səsvermənin necə keçdiyini, məntəqələrdəki vəziyyəti yaxından görmək, öyrənmək üçün oraya yollandıq. Özümüz də şəhər 3 saylı məntəqədə səs verdiyimizdən birinci oraya baş çəkdik. Məntəqənin sədri Cahangir Abdullayev, komissiya üzvləri Rüstəm Rüstəmov, Əlihadi Ağayev, Ədalət Salahov, Elşad Yusifov, Elnur Məmmədov iş başında idilər. Müşahidəçilər onlar üçün ayrılmış yerdə əyləşərək səsvermənin gedişini diqqətlə izləyirdilər.







Məntəqənin sədri Cahangir Abdullayevin sözlərindən aydın oldu ki, görülmüş bütün tədbirlər Seçki Məcəlləsinin tələblərinə uyğun həyata keçirilib. Mərkəzi Seçki Komissiyasının qərar və göstərişləri, Milli Məclis seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planı onlar üçün aydın istiqamət olub. İş şəraitinə də söz ola bilməzdi. Hər tərəfdə gözəllik, səliqə-sahman nəzərə çarpırdı. Seçici siyahılarının dəqiqləşdirilməsinə, seçicilərin məlumatlandırılmasına və digər vacib işlərin vaxtında yerinə yetirilməsinə diqqətin artırılması öz nəticəsini vermişdi. Demək olar heç kim kənarda qalmamışdı. Seçmək hüququ olan hər bir vətəndaş, xüsusilə ilk dəfə səs verəcək gənclər, xəstə və yaşlı insanlar öz hüquqlarından yetərincə istifadə edə bilərdilər.

Məntəqədə gördüklərimiz bunu bir daha təsdiqləyirdi. Ərazidə yaşayanlar dəstə-dəstə gələrək səslərini verir, ayrılmış yerdən məntəqəni tərk edirdilər. Onların arasında bütün yaş qrupuna aid insanlar var idi. Gənc seçici Fatimə Musayeva sevincini belə ifadə etdi:

— Müstəqil ölkəmizdə insanlara çox geniş hüquqlar, imtiyazlar verilib. Seçmək, seçilmək də bu hüquqlardan biridir. Bu gün biz ölkəmizin ali qanunverici orqanına — Milli Məclisə öz nümayəndəmizi, deputatımızı seçirik. Bu seçimdə iştirak etdiyimə görə çox sevinirəm. Həm də böyük məsuliyyət hissi keçirirəm. Bilirəm ki, səhv etmək olmaz. Ona görə Dairə Seçki Komissiyasında qeydə alınmış bütün namizədlərin kimliklərini, nəyə qadir olduqlarını diqqətlə öyrəndikdən sonra qərarımı dəqiqləşdirmişəm. İnanıram ki, seçəcəyimiz yeni deputatlar ölkəmizin daha sürətli inkişafına, biz gənclərin arzularının, istəklərinin çiçəklənməsinə xidmət edəcək yeni qanunların yaradılmasına, formalaşdırılmasına xidmət edəcəklər.

Özünün layiqli uğurları ilə sayılıb seçilən Qədimkənd kənd tam orta məktəbindəki yüksək əhvali-ruhiyyəni burada yerləşən 37 saylı seçki məntəqəsində də gördük. Burada da qələbəlik vardı. Ərazidəki insanlar böyük həvəslə gələrək səslərini verir, vətəndaşlıq borclarını layiqincə yerinə yetirirdilər. Məntəqə seçki komissiyasının sədri Ceyhun Ağayevin sözlərindən aydın oldu ki, bunun əsas səbəbi seçkilərə hazırlığın yüksək səviyyədə təşkil olunmasıdır. O, ərazidə yaşayan rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidovun adını hörmətlə çəkərək dedi ki, məntəqənin qaydaya salınmasında, qarşıya çıxan müəyyən çətinliklərin aradan qaldırılmasında köməyini əsirgəməyib. Buna görə Ceyhun müəllim Telman həkimə və bu işdə xidmətləri, köməkləri olan digər şəxslərə öz səmimi minnətdarlığını bildirdi.

Həmin gün digər məntəqələrdə də olduq, müşahidə apardıq, seçkinin gedişi ilə maraqlandıq. Hər yerdə yüksək fəallığın şahidi olduq. Adamlar həvəslə gələrək qabaqcadan müəyyənləşdirdikləri, seçdikləri namizədə səslərini verir, vətəndaşlıq borclarını yerinə yetirirdilər. Havanın soyuq, yağışlı, küləkli olmasına baxmayaraq təkcə cavanlar deyil, yaşlı insanlar da məntəqələrə gələrək səs verməyi özlərinə borc bilirdilər. Xəstələr, əlillər də bu vacib prosesdən kənarda qalmırdılar. Səs vermək üçün onlara da lazımi şərait yaradılmışdı. Məntəqələrin üzvləri belələri üçün qutuları onların evlərinə aparırdılar.

Axşam məntəqələrdə səsvermə başa çatdıqdan sonra işlər 61 saylı Dairə Seçki Komissiyasında davam etdirildi. Burada da işlər Seçki Məcəlləsinə uyğun yüksək səviyyədə qurulmuşdu. Hər kəs öz işini, vəzifəsini yaxşı bilirdi. Ayrı-ayrı siyasi partiyaları, ictimai təşkilatları təmsil edən müşahidəçilər də yerlərində idilər. Məntəqələrdən gələn protokollar yoxlanılıb dəqiqləşdirildikdən sonra Mərkəzi Seçki Komissiyasına ötürülürdü.

Gecədən xeyli keçmiş, nəhayət ki, işlər yekunlaşdırıldı. Məlum oldu ki, namizədlər arasında yüksək səsi **ARİF QAFAR OĞLU RƏHİMZADƏ** toplayıb. Nəticənin belə alınması gözlənilən idi. Təbliğat-təşviqat kampaniyası dövründə yerlərdə keçirilən görüşlər zamanı insanların Arif müəllimə göstərdikləri isti münasibəti, onu necə hərarətlə qarşılamalarını əyani şəkildə biz də görmüşdük. Onun mübarizələrlə dolu zəngin ömür yolu, ən çətin vaxtlarda dövlətimizə, dövlətçiliyimizə sədaqəti, insanlara, insanlığa bağlılığı, sadəliyi, təvazökarlığı və digər yüksək keyfiyyətləri sözün əsl mənasında gənc nəsil üçün nümunə, örnəkdir. Ötən deputatlıq fəaliyyəti dövründə Arif müəllim bunu dəfələrlə əyani şəkildə nümayiş etdirib. Özü də bunları kiməsə xoş gəlmək üçün etməyib, bu, sadəcə onun təbiətidir, həyat amalıdır. Həmişə eli-obası, yurdu üçün çalışanların, mübarizə aparanların cərgəsində olan Arif müəllim yıxılanın qolundan tutmağı, çətinliyə, dara düşənə arxa, dayaq olmağı, qayğı, kömək göstərməyi də bacarıb, bunu özünə borc bilib. Ən böyük qazancı xeyirxahlığına, insani keyfiyyətlərinə görə ətrafdakılardan eşitdiyi səmimi sağ ol, bir də el üçün, deputatı, elçisi olduğu Neftçala üçün qurub-yaratdıqlarının böyük sevinci olub. Məhz bütün bunlara görədir ki, neftçalalılar, rayon sakinləri Arif müəllimi elin adamı hesab edirlər, ona güvənirlər, qarşıdakı beş ildə də Neftçalanın inkişafı, tərəqqisi üçün çalışacağına, ona səs verəcək seçicilərinin etimadlarını doğruldacağına, qayğıları ilə yaşayacağına inanırlar.

Görüşlərin, tədbirlərin keçirildiyi hər yerdə Arif müəllimə olan böyük diqqətin, hörmətin şahidi olurduq. Onun kimliyi, potensialı, insanlar arasındakı nüfuzu bizə yaxşı bəlli olsa da, bu səmimi görüşlərdən sonra Arif Rəhimzadə gözlərimizdə bir az da ucalırdı, yüksəlirdi. Görürdük ki, bu müdrik insan sadə, səmimi, qayğıkeş olduğu qədər də məsuliyyətlidir. Sözünün qədrini, qiymətini bilən Arif müəllim heç yerdə heç kimə boş vədlər vermirdi. Sadəcə imkanlarını açıb ortaya qoyurdu, görə biləcəyi, həyata keçirəcəyi tədbirlərdən danışırdı. Adamlar da bu müdrik insanı məhz bu keyfiyyətlərinə görə sevir, qiymətləndirir, hər yerdə sevinclə qarşılayıb mehribanlıqla yola salırdılar. Bütün bunlardan sonra bir daha inandıq, əmin olduq ki, qədirbilən neftçalalıların yeni böyük etimadından sonra mübarizə təzədən başlayacaq. Seçicilərin, rayon sakinlərinin həyat şəraitlərinin daha da yaxşılaşdırılması, onları narahat edən çətinliklərin, problemlərin aradan qaldırılması uğrundakı mübarizə özünün yeni mərhələsinə qədəm qoyacaq.

**Habil ƏSƏDOV**

## XALQIN SEÇİMİNDƏ ƏN DOĞRU, DÜZGÜN, İNAMLI QƏLƏBƏ QAZANDINIZ SİZ

### Hörmətli deputatımız Arif Rəhimzadəyə

Nurludur siması, dərin kamalı,
Xəyalı qət edir bu kainatı.
Əsl vətəndaşın böyük amalı —
Millətin taleyi, müqəddəratı.
Dəyər ölçüsüdür saflıq, ləyaqət,
Mənəvi ucalıq ömrün naxışı.
Fədakar insana qoyulan qiymət
Xalqın ehtiramı, alqış yağışı.
Seçim önündəyik bu günlər yenə,
Seçək Milli Məclis deputatını.
Seçək Azərbaycan Parlamentinə
Vətənin layiqli, düz övladını.
Sadə, təvazökar, xeyirxah, həlim,
Bir də aydan arı, sudan durudur.
Bizim neftçalalı Arif müəllim
Xalqın iftixarı və qürurudur.
Bir dəfə görmədik xilaf söz, vədə,
Onun öz dərdidir millətin dərdi.
Yurdun ölüm-qalım günlərində də
O nikbin baxışla sabahı gördü.
Dedi yoxdur nicat ərşi-əladan,
Heydər Əliyevi harayla, səslə.
Yalnız o qurtarar xalqı bəladan
Parlaq zəkasıyla, təcrübəsiylə.
Bu gün Azərbaycan qənirsiz gözəl,
Bərq vurur dünyanın gur işığında.
Bu gün Azərbaycan necə mükəmməl
Durur Şərqlə Qərbin qovuşuğunda.
Sizə tapınıram, həmyerlilərim,
Sizə inanıram, həmyerlilərim,
Sizə üz tuturam, Arif müəllim,
Qoy ürək sözümü açım, söyləyim.
Xalqın seçimində, Arif müəllim,
İnamlı qələbə qazanaraq siz,
Milli Məclisində dövlətimizin
Millət vəkilimiz ola bildiniz!

**Ənvər QƏNBƏROĞLU,**
**şair-publisist**

# Beynəlxalq təşkilatlar seçkilər barədə belə deyirlər:

**AŞ PA-nın hesabatında deyilir:** "Azərbaycanda parlament seçkilərinə hazırlıq və səsvermə prosesi peşəkarlıqla təşkil olunub".

**Avropalı müşahidəçilər:** "Məntəqələrdə veb-kameraların quraşdırılması şəffaflıq nümunəsidir".

**Avropalı deputatlar:** "Azərbaycanda noyabrın 1-də Milli Məclisə keçirilən seçkilər beynəlxalq standartlara cavab verir".

**Rusiya Federasiyası İctimai Palatasının beynəlxalq əməkdaşlıq komissiyasının sədri Sergey Markov:** "V çağırış Milli Məclisə seçkilər düzgün, ədalətli, Azərbaycan xalqının iradəsini ifadə edib".

**GUAM:** "Azərbaycanda seçkilər milli qanunvericiliyə və beynəlxalq normalara uyğun keçdi".

**Almaniyalı müşahidəçilər adından müşahidə qrupunun rəhbəri Eduard Lintner:** "Seçki məntəqələrində və ətrafda apardığımız müşahidələr zamanı qanun pozuntusu qeydə almadıq. Nümayəndə heyətinin üzvləri demokratik qaydaların pozulması və ya ümumiyyətlə hər hansı zorakılıq halları müşahidə etmədi".

**Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzi:** "Komandamız seçki günü Bakıda, Sumqayıtda və Xırdalanda 100 seçki məntəqəsinə, 6 seçki dairəsinə baş çəkərək müşahidə apardı. Səsvermə prosesi yüksək səviyyədə təşkil edilmişdi. Məntəqələr bütün zəruri avadanlıqla təchiz olunmuşdu. Seçici fəallığı yüksək idi, qadınların fəallığı isə xüsusi qeyd edilməlidir".

**İsrail nümayəndələri:** "ATƏT-in Azərbaycana müşahidəçi göndərməməsinə heç bir əsas yox idi".

**Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin missiyası:** "Bu seçkilər 24 ildir müstəqil olan Azərbaycan üçün böyük uğurdur. Biz insanların ailəvi şəkildə səsverməyə getdiyinin şahidi olduq. Bu da çox sevindiricidir. Seçkidə tətbiq olunan veb-kamera sistemi isə şəffaflığın yeni modelidir. Bu sistem heç Türkiyədə də yoxdur"

**TÜRKPA missiyası:** “Seçkilərin texniki və prosedur qaydaları, seçici qeydiyyatı, təlim materiallarının hazırlanması yüksək səviyyədə təşkil olunmuşdu”.

**Rumıniya parlamentinin nümayəndə heyəti:** "Azərbaycanda seçki proseduru tam normal qaydada həyata keçirildi".

**İtaliya Senatının nümayəndəsi Sergio Divina:** "Biz bir çox ölkələrdə seçkilərdə müşahidələr aparmışıq. Əminliklə deyə bilərəm ki, o ölkələrdə Azərbaycanda olduğu kimi demokratik prinsiplərə riayət edildiyinin şahidi olmamışam".

**Slovakiya parlamentariləri:** "Azərbaycanda seçkilər demokratik və mütəşəkkil keçdi".

**MDB-nin qısamüddətli müşahidə missiyasının rəhbəri Sergey Lebedev:** "Yerli müşahidəçilərin sayının artması müsbət haldır".

**Çexiya parlamentinin müşahidə missiyası:** "Seçici fəallığı çox yüksək idi. Xüsusən, yerli müşahidəçilər arasında namizədlərin təmsilçilərindən daha çox adi vətəndaşların olması müsbət hal idi. Müşahidə zamanı heç bir məntəqədə qanun pozuntusuna rast gəlmədik. Seçkilər tam demokratik, şəffaf şəraitdə keçdi".

**Rusiyanın xarici siyasət idarəsi:** “ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycanda parlament seçkilərinə müşahidəçilər göndərməkdən imtinası "çox təəccüblüdür".

**Avstraliyalı parlamentarilər:** “Seçkilərin keçirilməsi üçün mükəmməl hüquqi-texniki baza yaradılmışdı. Nizam-intizama ciddi riayət edilirdi. Seçicilər sərbəst şəkildə məntəqələrə daxil olur, səslərini verirdilər. Bir sözlə, vətəndaşlar öz hüquqlarından yüksək səviyyədə istifadə etdilər”.

**Bütün bunlarla yanaşı dünyanı n bir çox xəbər agentlikləri, aparıcı televiziya kanalları, KİV-lər Azərbaycandakı seçkilər haqqında müsbət fikirlər söyləmiş, Milli Məclis seçkilərinin demokratik, yüksək fəallıq şəraitində keçdiyini bildirmişlər. Belə olan təqdirdə ABŞ Dövlət Departamentinin, ATƏT-in, Avropa İttifaqının seçkilərin nəticələrinə şübhə ilə yanaşmalarına nə ad vermək olar? Bu, ikili standartlar deyil, bəs nədir? Azərbaycanın əleyhinə olan hər hansısa kiçik bir sənədi şişirdərək "qarışqadan fil düzəldənlər" bilməlidirlər ki, ağ heç vaxt qara ləkə götürmür və götürməyəcək də.**

# Səmimi təbriklər

# ARİF QAFAR OĞLU RƏHİMZADƏNİN MİLLİ MƏCLİSƏ RAYONUMUZDAN YENİDƏN DEPUTAT SEÇİLMƏSİ NEFTÇALALILARI ÜRƏKDƏN SEVİNDİRMİŞDİR

## Azərbaycan Respublikası Milli Məclisi Regional Məsələlər Komitəsinin sədri, rayonumuzun deputatı Arif Rəhimzadəyə

**Hörmətli Arif müəllim!**

Sizi rayonumuzdan yenidən Milli Məclisə deputat seçilməyiniz münasibətilə öz adımdan və bütün neftçalalılar adından ürəkdən, səmimi-qəlbdən təbrik edirəm.

Sizi təkcə rayonumuzda deyil, bütün respublikamızda yaxşı tanıyır və qiymətləndirirlər. Ötən əsrin 90-cı illərində Siz xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqətinizi əyani şəkildə nümayiş etdirdiniz. Qaragüruhun at oynatdığı vaxtda heç kimdən, heç nədən çəkinmədən, qorxmadan xalqın nicatının, Azərbaycanın xoşbəxt gələcəyinin böyük dövlətçilik təcrübəsinə malik dünya şöhrətli siyasətçi Heydər Əliyevlə bağlı olduğunu dönə-dönə dilə gətirdiniz, bu dahi insanın respublika rəhbərliyinə gətirilməsi üçün var qüvvənizi sərf etdiniz.

O vaxt bunu etmək çox böyük cəsarət tələb edirdi. Bununla Siz həyatınızı da ciddi təhlükə qarşısında qoyurdunuz. Amma geri çəkilmirdiniz. Həyat Sizin haqlı olduğunuzu aydın şəkildə göstərdi. AXC hakimiyyətinin səriştəsizliyi, təsadüfi adamların vəzifə hərisliyi nəticəsində inkişaf edərək dərinləşən böhran ölkəni fəlakət həddinə çatdırmış, böyük çətinliklər, qurbanlar bahasına qazanılan müstəqilliyimizi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Məhz belə çətin, ağır vaxtda ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə respublikamızın paytaxtına gəldi. Milyonlarla insanlar dünya şöhrətli bu dahi şəxsiyyəti böyük coşqu ilə qarşıladılar, onu öz xilaskarı kimi qəbul etdilər. Ümummilli lider bu çətin vəzifənin öhdəsindən şərəflə gəldi. Məhv olmaqda olan müstəqilliyimizi, dövlətçiliyimizi xilas etdi. Müstəqil Azərbaycanı yenidən quraraq onu dünyaya tanıtdı.

Ulu öndər Heydər Əliyevin siyasi xəttinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi ölkəmizə yeni-yeni uğurlar qazandırır, onun beynəlxalq aləmdəki rolunu, nüfuzunu getdikcə genişləndirir. Bu gün Azərbaycanın regionun ən qüdrətli dövlətinə çevrilməsi, Avropanın enerji təhlükəsizliyində önəmli rola malik olması, respublikamızın paytaxtı ilə yanaşı regionların sürətli inkişafı, xalqın maddi həyat səviyyəsinin durmadan yüksəlməsi, ölkəmizdəki sabitlik və digər sahələrdə qazanılan böyük uğurlar, nailiyyətlər dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin məntiqi bəhrəsidir.



Əldə olunan bu böyük uğurlarda, nailiyyətlərdə Sizin də layiqli payınız vardır. Uzun illər Milli Məclis sədrinin birinci müavini, Regional Məsələlər Komitəsinin sədri kimi məsul vəzifələr daşımısınız. Müstəqil Azərbaycanın inkişafına, tərəqqisinə xidmət edən yeni qanunların hazırlanmasında, qəbul olunmasında yaxından iştirak etmisiniz. Siz eyni zamanda doğma Neftçalanın inkişafı, tərəqqisi üçün də səyinizi, köməyinizi əsirgəməmisiniz. Rayonumuzun ən böyük yaşayış məntəqələrindən olan Xıllı və Bankə qəsəbələrinin qazlaşdırılmasında, dəyəri 70 milyon manatdan artıq olan Xol zonasını bol əkin suyu ilə təmin edəcək Neftçala Magistral Kanalının tikintisində, fəaliyyətini dayandırmış Neftçala yod-brom zavodunun işə salınmasında, Bankə qəsəbəsindəki xəstəxana ilə bağlı problemin həll olunmasında, Nəqliyyat Nazirliyində aparılan struktur dəyişiklikləri ilə bağlı rayon yol istismar idarəsinə məxsus texnikanın rayondan çıxarılmaması üçün lazımi tədbirlərin görülməsində, Neftçalanın qazlaşması ilə əlaqədar çətinliklərin, problemlərin aradan qaldırılmasında və həlli çətin olan digər məsələlərin həllində yaxından iştirak etmisiniz. Bununla yanaşı Siz çoxlu sayda rayon sakinlərinin müraciətlərinə də həmişə həssaslıqla, qayğı ilə yanaşmısınız, onların əksəriyyətinin müsbət həllinə nail olmusunuz.

Şübhəsiz, bütün bunlar təsirsiz qala bilməzdi. Noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərdə rayon sakinlərinin böyük əksəriyyətinin səsini toplamağınız da məhz bunun nəticəsidir. Qədirbilən neftçalalılar yenidən Sizə səs verməklə zəhmətinizi, gördüyünüz işləri layiqincə dəyərləndirdilər.

Bir neçə gün bundan qabaq yeni formalaşan parlament özünün ilk iclasını keçirdi və bu iclasda Siz yenidən Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri seçildiniz. Bu Sizə olan inamın, etimadın yeni bariz nümunəsi idi. Biz əminik və inanırıq ki, Siz bundan sonrakı fəaliyyətinizdə də dövlətimizə, dövlətçiliyimizə xidmət edəcəksiniz, gələcək inkişafımıza təkan verəcək yeni qanunların hazırlanaraq qəbul edilməsində yaxından iştirak edəcəksiniz. İndiyə kimi neftçalalıların, seçicilərinizin yanında necə olmuşdunuzsa, bundan sonra da elə edəcəksiniz, doğma rayonumuzun tərəqqisi, qarşıya çıxacaq çətinlik və problemlərin həlli üçün qüvvə və bacarığınızı əsirgəməyəcəksiniz.

**Hörmətli Arif müəllim!**

Ölkəmizdə keçirilən demokratik seçkilərin sevincini, fərəhini yaşadığımız bu xoş günlərdə Sizi bir daha ürəkdən təbrik edirəm. Sizə möhkəm can sağlığı, işlərinizdə, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**İsmayıl VƏLİYEV,**
**Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı**

## Partiyanın da, insanların da etimadını layiqincə doğrultdunuz

Hörmətli Arif müəllim, bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Ona görə ki, üzvü olduğumuz partiya, bu partiyanın rayonumuzdan irəli sürdüyü namizəd Milli Məclis seçkilərində qalib gəlib, daha güclü olduğunu sübut edib. Qələbə münasibətilə Sizi 4370-dən çox üzvü olan YAP rayon təşkilatı adından təbrik edərəm, Sizə möhkəm can sağlığı, səmərəli fəaliyyət arzulayıram.

Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası zamanın çətin sınaqlarından keçərək bu gün ölkəmizdə ən güclü, ən möhtəşəm siyasi quruma çevrilmişdir. Cəmiyyətin idarə olunmasında həmişə fəal iştirak edərək bütün sahələrdə mütəşəkkillik göstərən bu partiya, şübhəsiz, siyasi tədbirlərdən, kampaniyalardan da kənarda qala bilməz. Keçən prezident, parlament, bələdiyyə seçkilərində, referendumlarda bunu əyani şəkildə görmüşük. Təmsil olunduğumuz Yeni Azərbaycan Partiyası noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərdə də fəal iştirak etdi, layiqli uğura imza atdı.

Partiyanın namizədləri arasında Sizin də adınız vardı. Dövlətimizə, dövlətçiliyimizə, Heydər Əliyev ideyalarına sonsuz sevgisi, sədaqəti ilə seçilən bir şəxsin qələbəsinə əmin idik. Bununla yanaşı neftçalalılar da Sizi yaxşı tanıyırdılar, xeyirxahlığınıza, yüksək insani keyfiyyətlərinizə, qətiyyətli mövqeyinizə yaxşı bələd idilər. Doğma Neftçalamızın, neçə-neçə insanların problemlərinin həllində yaxından iştirak etmişdiniz. Bütün bunlar öz nəticəsini verməli idi və verdi də. Siz rayonumuzdan Milli Məclisə yenidən deputat seçildiniz.

Qarşıdakı beş ildə də bir yerdə olacağıq. Sizin Neftçalada görmək istədiyiniz işlər, tədbirlər çoxdur. Yarımçıq qalmış işləri davam etdirmək, yeni layihələri həyata keçirmək heç də asan olmayacaq. Üstəlik görüşlər zamanı seçicilərinizdən yeni tapşırıqlar almısınız, çoxlu sayda müraciətlər olub. Bunlar Sizdən böyük qüvvə, enerji tələb edəcək. Əminik ki, Siz bu işlərin öhdəsindən də layiqincə gələcəksiniz, Sizə olan böyük inamı, etimadı doğruldacaqsınız.



**Anar CƏFƏROV,**
**Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri**

## Əminik ki, Siz qarşıdakı işlərin öhdəsindən də layiqincə gələcəksiniz

Hörmətli Arif müəllim, Sizi çoxsaylı tibb işçiləri adından salamlayıram, təbrik edirəm. Hər birimiz inanırıq ki, Siz bundan sonra da var qüvvənizlə çalışaraq ölkəmizin tərəqqisinə, Neftçalanın inkişafına xidmət göstərəcəksiniz.

Təbliğat-təşviqat kampaniyası dövründə deputatlığa namizədin vəkili kimi daim yanınızda olduq. Rayonumuzun ərazisini birlikdə gəzdik, çoxlu görüşlər keçirdik, bir sıra tədbirlərin iştirakçısı olduq. Hamısında da neftçalalıların, həmyerlilərimizin Sizə olan isti münasibətlərini, hörmət və ehtiramlarını gördük. Belə böyük hörməti, ehtiramı qazanmaq hər adama nəsib olmur. Siz buna ləyaqətinizlə, alicənablığınızla, sözünüzə, vədinizə sədaqətinizlə nail olmusunuz. İnsanlar Sizə inanırlar, etibar edirlər, özlərinə arxa, kömək hesab edirlər.

Siz bizdən, tibb işçilərindən də köməyinizi əsirgəməmisiniz. Bankə qəsəbə xəstəxanasında Xəzər Dəniz Gəmiçiliyi İdarəsi ilə yaranan problemi necə unutmaq olar?! Bu çətin məsələ məhz Sizin köməyiniz sayəsində həll olundu. Aylarla əmək haqqı ala bilməyən tibb işçilərinin arzusu yerinə yetirildi. Rayon mərkəzi xəstəxanasının əsaslı təmirinin plana salınması üçün də az əziyyət çəkməmisiniz. Qısa vaxtda burada çox iş görülüb. Təmir və yenidənqurma işləri başa çatdıqdan, xəstəxana ən müasir tibb avadanlıqları, diaqnostika vasitələrilə təmin edildikdən sonra rayon sakinlərinin müayinə və müalicə üçün Bakı şəhərinə və digər uzaq ünvanlara getmələrinə ehtiyac olmayacaq. Buna görə neftçalalılar möhtərəm Prezidentimiz İlham Əliyevə, bu xeyirxah işə kömək göstərən insanlara, o cümlədən Sizə minnətdardırlar.

Artıq 2016-cı ilin astanasındayıq. Qarşıda bizi bir-birindən şərəfli vəzifələr gözləyir. Yəqin Milli Məclisdə də işləriniz çox olacaq, dövrün, zamanın tələblərinə uyğun yeni qanunlar formalaşdırılacaq. Hələ mən Neftçalada yarımçıq qalan işlərinizi, seçicilərinizdən aldığınız çoxsaylı tapşırıqları demirəm. Bütün bunlar Sizdən yüksək fəallıq, böyük enerji tələb edəcək. Əminik ki, Siz bu işlərin öhdəsindən də layiqincə gələcəksiniz.



**Telman ZAHİDOV,**
**rayon mərkəzi xəstəxanasının baş həkimi**

## Rayon sakinlərinin Sizi dəstəkləyəcəyinə heç bir şübhəmiz yox idi

Hörmətli Arif müəllim, mən də Sizin vəkiliniz olmuşam, Sizi təbliğ etmişəm, insanlara, rayon sakinlərinə ömür yolunuz və ictimai fəaliyyətiniz barədə geniş məlumat vermişəm. Əslində Sizin buna bir o qədər də ehtiyacınız yox idi. Ona görə ki, nəinki neftçalalılar, bütün xalqımız, millətimiz Sizi yaxşı tanıyır. Necə mərd, mübariz, dovlətimizə, dövlətçiliyimizə sədaqətli olduğunuzu yaxşı bilir. Bunu dönə-dönə sübut etmisiniz. Bu mənada yenidən seçiləcəyinizə, rayon sakinlərinin məhz Sizi dəstəkləyəcəyinə heç bir şübhəmiz yox idi.

Bu belə də oldu. Siz seçicilərin ən yüksək səsini qazandınız. Bu bir daha sübut etdi ki, neftçalalılar Sizə inanır, etibar edir, daim Sizinlə birlikdə olmaq istəyirlər. Biz inanırıq ki, Siz bundan sonra da seçicilərinizin etimadını doğruldacaqsınız. Təkcə şad günlərində deyil, çətin günlərində də onların yanında olacaqsınız, Sizdən kömək istəyənlərdən köməyinizi əsirgəməyəcəksiniz.

Dünyanın bütün mədəni ölkələrini, inkişafa, tərəqqiyə aparan, demokratiyanı, insan hüquq və azadlıqlarını təmin edən parlamentlərdə qəbul olunan sivil qanunlardır. Bu mənada Azərbaycan parlamenti — Milli Məclisi də az iş görməyib — xalqımızın, millətimizin mənafeyinə, ölkəmizin tərəqqisinə xidmət edən çoxlu sayda qanunlar qəbul edib. Bu qanunların hazırlanmasında, qəbul edilməsində Siz də yaxından iştirak etmisiniz. Bilavasitə bizim fəaliyyətimizi tənzimləyən "Baytarlıq haqqında" qanun da bu işdə az rol oynamır. Sizin bu sahədə çox zəngin təcrübəniz var. Elə bilirik özünü həmişə neftçalalı hesab edən hörmətli Arif Rəhimzadə qanunvericilik orqanının fəaliyyətində fəal iştirak etməklə yanışı, doğma Neftçalamızın daha da abadlaşması və müasirləşməsi, seçicilərinin müraciətlərinin vaxtında həll olunması üçün də var qüvvəsini sərf edəcək.



**Əbülfəz MƏLİKOV,**
**rayon baytarlıq idarəsinin rəisi**

## Zəhmətinizi, fədakarlığınızı unutmaq olmur

Uzun illərdir ki, maliyyə sahəsində çalışıram. Maliyyənin dövlətin, insanların həyatındakı rolunu, əhəmiyyətini yaxşı dərk edirəm. Bilirəm ki, möhkəm maliyyə bazası yaratmadan heç bir işi həyata keçirmək mümkün deyil. Bu mənada ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə işləyib hazırladığı, çətinliklərlə həyata keçirdiyi neft strategiyasına borcluyuq. Əgər bu dahi insan Azərbaycan hakimiyyətinə qayıtmasaydı bu gün yüksək inkişafdan danışmaq, dünyada, beynəlxalq aləmdə tanınmaq mümkün olmazdı.

Bunun üçün isə biz Sizə minnətdarıq, hörmətli Arif müəllim. Xalqın, Vətənin ağır, fəlakətli günlərində çoxları özlərini gizlədəndə, mövqelərini bildirməkdən çəkinəndə Siz milyonların gözləri qarşısında səsinizi qaldıraraq nicatımızın, gələcək xoşbəxtliyimizin böyük dövlətçilik təcrübəsinə malik möhtərəm Heydər Əliyevlə bağlı olduğunu deməyə cəsarət tapdınız. Həm də təkcə demədiniz, bu dahi insanın ölkə rəhbərliyinə gətirilməsi üçün ardıcıl səylər göstərdiniz.

Nəticə göz qabağındadır. Məhz "Əsrin müqaviləsi"ndən, dünyanın aparıcı neft şirkətləri ilə bağlanan kontraktlardan sonra müstəqil Azərbaycan start götürərək sabaha doğru istiqamətlənməyə, qanadlanmağa başladı. Bu gün biz qazandığımız bütün uğurlara görə ulu öndər Heydər Əliyevə minnətdar olmalıyıq. Bu işıqlı, nurlu yolu layiqincə irəli apararaq daha da zənginləşdirən möhtərəm Prezidentimiz İlham Əliyevlə fəxr etməliyik. Maliyyə böhranının dünyanı silkələdiyi indiki vaxtda Azərbaycanın inkişaf edərək yeni uğurlar qazanması dövlət başçımızın müdrik siyasətinin bəhrəsidir.

Hörmətli Arif müəllim, bütün bunları unutmaq olmur. Xalq məhz buna görə Sizi sevir və qiymətləndirir. Xalqımızın bir parçası olan neftçalalılar da bunu görməyə, dəyərləndirməyə bilməzdilər. Onlar da Sizdən həmişə qürur duyurlar.



**Rəşid MANAFOV,**
**rayon maliyyə idarəsinin rəisi**

## Xidmətlərinizi həmişə xatırlayacağıq

Təhsil elə sahədir ki, o daim ümumxalq qayğısı tələb edir. Belə olmasa bu genişmiqyaslı sahəni inkişaf etdirmək, problemləri aradan qaldırmaq, təlim-tərbiyə prosesini yoluna qoymaq, müasirləşdirmək mümkün deyildir. Ona görə dövlətin həyata keçirdiyi tədbirlərlə yanaşı, xoşbəxt gələcəyimizi düşünən ayrı-ayrı işıqlı şəxsiyyətlər də bu mühüm sahədən köməklərini heç vaxt əsirgəmirlər, ona daim dəstək verirlər. Bu köməyi, dəstəyi Sizdən də görmüşük, hörmətli Arif müəllim. Rayon təhsilinin inkişafında Sizin də özünüzə layiq xidmətləriniz olub. Yeni məktəblərin tikilməsi, onların avadanlıqlarla təmin olunması üçün səylərinizi heç vaxt əsirgəməmisiniz. Təhsil Nazirliyi və respublikanın bir sıra yuxarı təşkilatları qarşısında qaldırdığınız məsələlər bir çox problemlərimizin həllində, çətinliklərimizin aradan qaldırılmasında az rol oynamayıb. Biz buna görə Sizə ürəkdən minnətdarıq.

Çoxillik səmərəli əmək fəaliyyətiniz Sizə zəngin təcrübə qazandırıb. Gənc nəsil Vətəni, xalqı sevməyi, işıqlı gələcək uğrunda mübarizə aparmağı, sadəliyi, təvazökarlığı və digər yüksək insani keyfiyyətləri Sizdən, Sizin kimi işıqlı insanlardan öyrənməlidir. Siz bunu əməllərinizlə hər addımda dönə-dönə sübut etmisiniz. Müstəqilliyimizin xilası günlərində ümummilli lider Heydər Əliyevin yanında olmaq, bu dahi insana dəstək vermək, müdafiə etmək sözün əsl mənasında fədakarlıq idi. Bunu yalnız dövlətini, xalqını Sizin kimi ürəkdən sevən insan edə bilərdi. Əminik ki, Siz bundan sonra da bu dahi insanın işıqlı ideyalarına sədaqət nümunələri göstərəcək, ulu öndərin yolunu böyük inamla, ilhamla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həmişə yanında olacaqsınız.

Sizi Milli Məclisə yenidən deputat seçilməyiniz, bu ali orqanda yüksək vəzifə tutmağınız münasibətilə çoxsaylı müəllimlər və təhsil işçiləri adından ürəkdən təbrik edirəm. Arzu edirəm zəngin təcrübənizlə, nümunəvi fəaliyyətinizlə uzun illər Vətənimizin çiçəklənməsinə xidmət göstərəsiniz. İnanırıq ki, bu belə də olacaq.



**Əjdər KƏRİMOV,**
**rayon təhsil şöbəsinin müdiri**

## Kimyaçılar da Sizə minnətdardırlar

Yeni iş yerlərinin açılması, insanların daimi iş yerlərilə təmin olunması Prezident İlham Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindəndir. Bu işdə sahibkarlığın inkişafı da çox mühüm əhəmiyyət kəsb edir. Sahibkarların yaratdıqları müəssisələr təkcə yeni iş yerləri deyil, həm də yeni məhsuldur. Bu isə bolluğun yaranmasına, rəqabətin artmasına, genişləndirilməsinə öz müsbət təsirini göstərir.

Köhnə ittifaqın dağılmasından sonra rayonun ən böyük müəssisələrindən olan Neftçala yod-brom zavodunun fəaliyyətini dayandırması çox ciddi çətinliklərə səbəb olmuşdu. Çoxlu sayda insanlar işsiz qalmışdılar. Biz də həmin müəssisənin bərpasına başlayanda dövlət başçısı cənab İlham Əliyevin dəstəyinə arxalanmışdıq. Buna baxmayaraq iş prosesində çoxlu problemlərlə qarşılaşdıq. Hörmətli Arif müəllim, belə çətin günlərimizdə rayonumuzun deputatı kimi məhz Siz köməyimizə çatdınız. Bir sıra problemləri, çətinlikləri məhz Sizin köməyinizlə aradan qaldırdıq, yoluna qoyduq.

Bu təkcə bizə yox, uzun illərdən bəri böyük intizarla iş yeri gözləyən kimyaçılara dəstək idi. Müəssisəmizin açıldığı günlərdə onların sevincinin həddi-hüdudu yox idi. Özlərinə daimi iş yerləri tapan bu insanlar dövlət başçısına, müəssisənin qurulub yaradalmasında xidmətləri olan bütün insanlara özlərinin səmimi minnətdarlıqlarını bildirirdilər. Onların sırasında Siz də vardınız, hörmətli Arif müəllim.

Sizin zəngin təcrübəniz, peşəkarlığınız, əqidə möhkəmliyiniz, Heydər Əliyev ideyalarına sədaqətiniz cəmiyyətimiz üçün nümunədir. İnkişafımızı təmin edən, ictimai həyatımızı tənzimləyən neçə-neçə qanunların işlənib hazırlanasında böyük zəhmət sərf etmisiniz. Qarşıda isə Sizi daha mühüm vəzifələr gözləyir. Yenidən rayonumuzdan deputat seçilməyiniz, Milli Məclisdə məsul vəzifə daşımağınız Sizdən daha fəal çalışmağı tələb edəcək. Sizi ürəkdən təbrik etməklə yanaşı həm də möhkəm can sağlığı, səmərəli fəaliyyət arzulayırıq.



**Rəşad XƏLİLOV,**
**"Azər-Yod" MMC-nin baş direktoru**

## Beşinci dəfə qazandığınız bu qələbə halalınızdır

Hörmətli Arif müəllim, bu gün Sizi salamladığımıza, təbrik etdiyimizə görə biz də şadıq, sevinirik. Ona görə ki, aramızda çox səmimi münasibətlər var. Kollektivimiz Sizi özünə həmişə doğma sanıb. Neçə illərdir Neftçaladakı köməkçiniz idarəmizdə məskunlaşıb, burada fəaliyyət göstərir. Elə özünüz də buraya az gəlməmisiniz. Melioratorlar Sizi daim doğmaları, əzizləri kimi qarşılayıblar. Yeri gələndə müəyyən çətinliklərini də Sizdən gizlətməyiblər. Həmişə də kömək, diqqət görüblər. Bununla yanaşı idarəmizin də neçə-neçə problemlərinin həllində, çətinliklərin aradan qaldırılmasında yaxından iştirak etmisiniz. Son illərdə idarəmiz üçün çoxlu sayda müasir texnika vasitələrinin, mexanizmlərin alınıb gətirilməsində xidmətləriniz az olmayıb. Meliorativ tədbirlərlə yanaşı, rayonumuzun ərazisindəki bir çox abadlıq, təmizlik işlərini də məhz bu mexanizmlərin, texnika vasitələrinin köməyilə həyata keçiririk.

Seçkilərlə bağlı tədbirləri biz də ardıcıl izləmişik. Yeri gələndə köməyimizi də əsirgəməmişik. Seçki günü xüsusilə diqqətli idik. Xoş xəbəri biz də intizarla, həyəcanla gözləyirdik. Nəticə elə gözlədiyimiz kimi də oldu. Seçicilərin böyük əksəriyyəti səslərini məhz Sizə verdilər. Başqa cür ola da bilməzdi. Rayon sakinlərinin Sizə olan rəğbətini, hörmətini daim yaxından gördüyümüzdən, hiss etdiyimizdən belə deyirik. Milli Məclis seçkilərində beşinci dəfə qazandığınız bu qələbə Sizə halaldır. Onu öz zəhmətinizlə, xalqımıza, neftçalalılara göstərdiyiniz böyük xidmətlərinizlə qazanmısınız.

İnanırıq ki, bundan sonrakı ömrünüzü də Vətənin inkişafına, xalqın maddi rifah halının yaxşılaşmasına sərf edəcəksiniz. Rayonumuzda başladığınız işləri uğurla davam etdirəcəksiniz. Sizə müraciət edənlərdən heç vaxt köməyinizi əsirgəməyəcəksiniz. Özünüzü neftçalalı, rayon sakini sandığınızı əməli işlərinizlə, xeyirxahlığınızla bir daha təsdiq edəcəksiniz.



**Elçin ƏSƏDOV,**
**rayon suvarma sistemləri idarəsinin rəisi**

# İNSANLARA, İNSANLIĞA XİDMƏT MÜSBƏT RƏY DOĞURUR

## MÜSTƏQİL İLLƏRİMİZİN DEPUTATI

Milli müstəqillik olmayan yerdə milli mədəniyyət çiçəklənə bilməz. Milli müstəqillik olmayan yerdə milli siyasətdən isə söhbət belə gedə bilməz.

Nə qədər bəyənməsək də, etiraf etməliyik ki, biz hamımız bəyənmədiyimiz sovet məktəbinin yetirmələriyik, sovet "köynəy"indən çıxmışıq: məmurumuz da, fəhləmiz də, iş adamımız da...



Sovet rejimi dağıldıqdan sonra nəinki dünyanın siyasi mənzərəsi, hətta mənəvi dünyamız da dəyişikliklərə uğradı, milli şüurumuz qol-qanad açdı. Ali Sovetimiz də Milli Məclisə çevrildi. Müstəqil milli dövlətimizin müstəqil Milli Məclisinə deputat seçərkən biz Arif Rəhimzadə seçimini etdik. İlk növbədə bu şəxsin zəngin tərcümeyi-halı, pillə-pillə yüksələn ömür yolu və bir də heç bir zaman dəyişməyən siyasi mövqeyi diqqətimizi cəlb etdi. Arif müəllim elə bir ziyalı, elə bir siyasi xadimdir ki, Azərbaycanın istənilən nöqtəsindən namizədliyini verər və Milli Məclisə üzv seçilə bilərdi. Amma sanki hansısa bir qüvvə, bir məntiq, bir qanunauyğunluq onu Neftçalaya bağladı. Neftçala onu, o da neftçalalıları sevdi. Fəhlə və ziyalı sintezini indiyə qədər özündə yaşadan Neftçala və neftçalalılar bu seçimdə uduzmadı, əksinə, bütün sahələrdə uddu. Sözün əsl mənasında təmənnasız, əsl ziyalı, bir üzü, bir mövqeyi, bir prinsipi olan Arif Rəhimzadə sanki ruhən neftçalalı idi. Ona görə də rayonda dəfələrlə rəhbərlik dəyişsə də, vəzifələrdə müxtəlif insanlar çalışsa da, neftçalalılar öz seçimlərini dəyişmədilər, hər Milli Məclisə seçkilər zamanı özlərinin müstəqillik dövründə ilk seçdikləri deputatlarını başqasına dəyişmədilər, yenidən onun namizədliyini dəstəklədilər, yenidən ona səs verdilər, onu seçdilər. Çünki Arif müəllim sıravi, adi, təsadüfi adam deyildi. Bir də axı təkcə maddələrin, metalların xüsusi çəkisi olmur, insanların da xüsusi çəkisi olur. Bizim Arif müəllim istər cəmiyyət içində, istərsə də fəaliyyət meydanında xüsusi çəkisi olan şəxsiyyətlərdən biridir.



Arif Rəhimzadə adı və soyadı ilə xalqımız çoxdan tanışdır. Hələ sovet dönəmində bu insan bir sıra mühüm vəzifələrdə çalışmış, respublikanın ictimai-siyasi həyatında sayılıb-seçilən, sözü keçən simalardan biri olmuşdur. Uzun illər Quba rayon partiya komitəsinə rəhbərlik etmiş bu ədalətli, təmənnasız insanı qubalılar bu gün də minnətdarlıq duyğusu ilə xatırlayır, qiymətləndirirlər. Ümumiyyətlə, Arif müəllim işlədiyi bütün sahələrdə həmişə xoş soraqlar, xoş izlər qoymuşdur.



Əvvəlcə respublika Ali Sovetinə, 1995-ci ildən isə Milli Məclisə deputat seçilən Arif Rəhimzadə ən ağır, ən məsuliyyətli dövrlərdə belə ölkənin mötəbər tribunasından əsl vətəndaş mövqeyi nümayiş etdirmiş, böyük uzaqgörənliklə xalqımızın, ölkəmizin, müstəqilliyimizin yalnız Heydər Əliyev dühasının qüdrəti ilə fəlakətlərdən, məhv olmaq təhlükəsindən xilas olacağını dəfələrlə dilə gətirmiş, məntiqlə sübuta yetirmiş və onun gəldiyi qənaət sonralar reallaşaraq həqiqətə çevrilmişdir.

Adətən deputatlığa namizədliyini irəli sürənlər özlərinin gələcək platformalarını geniş şəkildə seçici kütləsinə təqdim edir, deputat seçiləcəyi təqdirdə görəcəkləri işlər haqqında müxtəlif vədlər verir, bacardıqca daha çox diqqəti cəlb etməyə, seçici səsi toplamağa çalışırlar. Müstəqillik illərində biz çoxlu belə namizədlər görmüşük, vədlər dinləmişik, platformalar oxumuşuq. Torpağımızı üç millimetr qızılla örtməkdən tutmuş az qala Marsa körpü saldırmağa qədər... yağlı vədlərə, yağlı yalanlara qulaq asmışıq. Heç bir reallığa sığmayan, imkanlar xaricində olan bu vədlər əslində öz sahiblərini gülünc vəziyyətə salırdı. Deputat birinci növbədə nüfuzlu şəxs olmalıdır ki, onun qaldırdığı məsələyə reaksiya verilsin, ən azı hər hansı bir nazirlikdə zənginə, xahişinə müsbət cavab verən tapılsın. Bu mənada Arif müəllim istisna təşkil edən şəxsiyyətlərdəndir: onun hər hansı zəngi, xahişi, işgüzar addımı dərhal eşidilir və özünün müsbət həllini tapır. Gəlin etiraf edək ki, bu gün bütün millət vəkilləri bunu edə bilməz, bunu yalnız böyük hörmətə və nüfuza malik olan Arif müəllim kimi ictimai və siyasi dövlət qulluqçusu edə bilər. Arif müəllimi çoxlarından fərqləndirən cəhətlərdən biri məhz budur. O heç vaxt öz seçicilərinə quru vədlər verməyib, seçkiqabağı dediyi hər bir sözünün üstündə dayanıb, zaman-zaman görəcəyi işləri reallaşdırıb, eyni zamanda Milli Məclisdə özünün cəsarətli, müdrik çıxışları ilə konkret təkliflər verib, ölkəmizin daxili və xarici siyasətinə real tezislərlə münasibət bildirib, qanunların işlənib hazırlanmasında, qəbul edilməsində fəal addımlar atıb, öz zəngin təcrübəsi ilə həmişə çoxlarına nümunə olub.

Neftçalalılar həmişə öz deputatlarını fəal mövqedə görmüş və bununla fəxr etmişlər. Arif Rəhimzadə və Neftçala, Arif Rəhimzadə və neftçalalılar. Bu, artıq gözlərimiz önündə tarixə çevrilmiş bir dövrün mövzusudur, müstəqillik illərimizin mövzusu. Bu dövrdə artıq Neftçala öz bütün parametrləri ilə Arif müəllimin tərcümeyi-halına düşmüş, Arif Rəhimzadənin adı isə Neftçalanın tarixinə yazılmışdır. Bu illər ərzində Arif müəllim sözün geniş mənasında əsl neftçalalıya, özü də fəxr ediləsi neftçalalıya çevrilmişdir. O bu gün rayonumuzda hamının doğması, dostu və dar ayaqda üz tutduğu, arxalana biləcəyi bir insandır, daha dəqiq desək, canlı bir ünvandır. Onun bəzilərindən fərqli olaraq, burada, rayonumuzda heç bir daşınan və daşınmayan əmlakı — mağazası, şadlıq sarayı, bahalı obyektləri yoxdur. Amma Arif müəllim bir məsələdə çoxlarından zəngin və çoxlarından varlıdır: onun Neftçalada böyük və tükənməz bir daşınmaz, aşınmaz əmlakı vardır, o da qazandığı el məhəbbəti, el hörməti, xalq sevgisidir. Arif müəllimin təşəbbüsü və köməkliyi ilə görülən işlərdən bir azdan söhbət açacağıq, amma hər şeydən əvvəl onu deməliyik ki, Arif müəllim bir millət vəkili kimi ən əvvəl neftçalalıların qəlbində özünə abidə ucaltmağı bacarmış, səmimi məhəbbət qazanmışdır. Bu isə hər millət vəkilinə nəsib olmur.

Arif müəllimin iştirakı və köməkliyi ilə görülmüş, görülən, icrası hələ də davam edən işlər göz qabağındadır. Bu barədə dəfələrlə qəzetimizdə yazmış, ətraflı söhbət açmışıq. Mən bunları bütün təfərrüatı ilə bir də təkrar etmək istəmirəm, amma zamanlara, mərhələlərə bölmədən sadəcə olaraq yada salmaq istəyirəm. Hər cür tərifdən, təbliğdən uzaq, sadə həqiqətləri xatırladıram. Arif müəllim nazir deyil, başçı deyil, iş icraçısı deyil. Adi bir deputatdır da desəm, düzgün olmaz. Neftçalanın və neftçalalıların bəxtinə düşmüş əvəzsiz bir şansdır desəm, yanılmaram. Rayonumuzda yeni qaz kəmərinin çəkilməsi, Bankə və Xıllı qəsəbələrinin növbədənkənar qazlaşdırılması, Yod-brom zavodunun yenidən canlandırılması, Neftçala Magistral Kanalının plana salınaraq işlərə başlanması, Bankə xəstəxanasının uzun illərdən sonra təmir olunması, Həsənabad qəsəbəsinin su təchizatının yaxşılaşdırılması, Şorsulu-Xəzərkənd yolunun əsaslı təmirinə nail olunması, yeni suvarma şəbəkələrinin yaradılması, balıqçıların dənizə çıxış məsafəsinin yaxşılaşdırılması, ağır əməliyyata məruz qalan bir çox xəstələrin müalicəsinin təşkil olunması, problemi olan insanların problemlərinə çarə qılınması, rayonda təhsilin inkişafına hərtərəfli qayğı göstərilməsi, seçicilərlə mütəmadi keçirilən səmimi görüşlər və onların real nəticələri, rayonun bütün tədbirlərində, əlamətdar günlərdə əhali ilə bir sırada olması, qəbul yerindən, saatından, iş rejimindən asılı olmayaraq heç kimdən köməyini əsirgəməməsi, sadə insanlarla daim təmasda olması... Arif müəllimi bizə sevdirən cəhətlər məhz bunlardır.

İllər keçəcək, nəsillər dəyişəcək, elə bir vaxt gələcək ki, belə bir əsər yazılacaq: "Arif Rəhimzadə və Neftçala". Gələcək nəsillər müstəqilliyimizin ilk mühüm zaman vahidində Milli Məclisdə rayonumuzu, həmyerlilərimizi təmsil edən bu sadə və işgüzar millət vəkilindən söhbət açacaq, ona örnək kimi baxacaqlar. Amma hal-hazırda biz bizimlə birlikdə olan Arif Rəhimzadəni həmişə özümüzlə bir sırada, el içində, əhali arasında görmək istəyirik. Belə şəxslərin potensialı tükənməzdir, ondan faydalanmaq, öyrənmək, istifadə etmək, həm də hörmətini uca tutmaq hamımızın xeyrinədir.

**Zabil PƏRVİZ,**
**şair-publisist, "Yeni Dünya" mükafatı laureatı**

## MİNNƏTDARLIQ DUYĞULARI

Hörmətli Arif Rəhimzadə millət vəkili kimi, Milli Məclisin üzvü kimi təkcə qanunların işlənib hazırlanmasında, qəbulunda iştirak etməyib, eyni zamanda ona müraciət edənlərə də daim həssaslıqla yanaşıb, onların problemlərinin həlli, çətinliklərinin aradan qaldırılması üçün əlindən gələni əsirgəməyib. Şübhəsiz, bunlar təsirsiz qala bilməz. Arif müəllimə ünvanlanan səmimi minnətdarlıqların bir çoxu məhz bununla əlaqədardır. Onların bir neçəsini sizə təqdim edirik, əziz oxucular.

### O bizlərə necə arxa olursa, qoy Allah da onu elə qorusun

İşsiz qalmağın nə olduğu insanlara yaxşı bəllidir. Problemlərin baş alıb getdiyi vaxtda işsiz qalmaq xüsusilə çətindir. Bu narahatlığı, çətinliyi keçirdiyimə, yaşadığıma görə belə deyirəm. İşimi itirdiyimdən evimizə gəlir demək olar ki, gəlmirdi. Məcbur olub orada-burada işləyirdim, çalışırdım ki, ailəmi bir təhər dolandırım, ac qalmasınlar. Neçə ünvana, neçə yerə baş çəksəm də daimi iş yeri tapa bilməmişdim. Nəhayət, qərara aldım ki, rayonumuzun deputatına müraciət edim.

Belə də etdim. Hörmətli Arif müəllim məni çox səmimi qarşıladı, vəziyyətimizlə, dolanışığımızla maraqlandı. Məhz hörmətli deputatımızın köməyi sayəsində əvvəllər çalışdığım neft sahəsində — Neftçala Operatinq Kompayn LTD şirkətinin Neftçala filialında işə düzəldim. Bu bizə, ailəmizə göstərilən çox böyük kömək, qayğı idi. Bunu necə unutmaq olar?! Arif müəllimə işlərində, fəaliyyətində uğur diləyirəm. O bizlərə necə kömək, arxa olursa, qoy qadir Allah da köməyini ondan əsirgəməsin, hamı üçün gərəkli olan bu gözəl, ləyaqətli insanı qorusun, hifz eləsin.

**İbrahim ƏHMƏDOV,**
**Həsənabad qəsəbə sakini**

### Müraciətlərimiz reallaşdıqca sevincimiz də artır

Ötən seçkiləri yaxşı xatırlayıram. Xol ərazisində insanlar ən çox bu əraziyə gələn yolun bərbad vəziyyətindən, yanacaq, su sarıdan çəkdikləri əziyyətdən danışırdılar. Özü də ürək ağrısı ilə, narahatlıqla. Onları qınamaq olmurdu. Uzun illərdən bəri əsaslı təmir olunmadığından Şorsulu-Xəzər yolu doğrudan da dağılıb tökülmüşdü. Təbii yanacaq, bol su arzusu ilə yaşayan insanlar bunların həll olunması üçün də Arif müəllimdən dönə-dönə xahişlər edirdilər.

Artıq arzularımız reallaşır. Şükür ki, yolumuz çəkilib. Qazlaşma da ərazimizdə böyük sürətlə həyata keçirilməkdədir. İlk sevinci qonşuluğumuzdakı Qaçaqkənd inzibati ərazisindəki sakinlər yaşadılar. Yaxınlıqdakı Qırmızıkənd inzibati ərazisində də "mavi alov"un şölələnməsinə çox qalmayıb. Növbədə isə Xolqarabucaq, Xolqaraqaşlı və Xəzər inzibati əraziləridir. Biz də qaz çəkənlərin yolunu intizarla, səbirsizliklə gözləyirik. İnanırıq ki, onlar tezliklə bu ərazilərdə yaşayanları da sevindirəcəklər.

İstər yolun, istərsə də qazın çəkilişində yaxından köməyi olan hörmətli Arif Rəhimzadə ərazimizin suya olan tələbatının ödənilməsi üçün də səyini əsirgəmir. Uzunluğu 26 kilometrə yaxın olan Neftçala Magistral Kanalının inşası bilavasitə hörmətli deputatımızın təşəbbüsü ilə bağlıdır. Bilirik ki, Arif müəllim bunun üçün çox qapılar açıb, nə qədər yüksək vəzifəli şəxslərdən xahişlər edib. İndiyə kimi görülən işlər də məhz onun səylərinin bəhrəsidir. Kür çayı sahilindəki 4 aqreqatlı nasos-stansiya demək olar ki, hazır vəziyyətdədir. Saniyədə 15,2 kubmetr su vurmaq gücündə olan bu stansiya işə düşdükdən sonra yəqin ki, ərazimizdəki su problemi tamamilə aradan qaldırılacaqdır. İnanırıq ki, hörmətli deputatımız başladığı, təşəbbüsçüsü olduğu işlərin başa çatması üçün səylərini bundan sonra da əsirgəməyəcəkdir.

**Namid ƏHMƏDOV,**
**Xolqaraqaşlı kənd sakini, fermer**

### Söz verdi, yerinə də yetirdi

Milli-mənəvi dəyərlərimizə hörmət, onların qorunub saxlanılması hər birimizin borcudur. Yas mərasimləri də elimizin yaşadılan adətlərindəndir. Belə mərasimlər çadırlarda keçirildiyindən kənd yerlərində, yaşayış məhəllələrində onlara xüsusilə böyük ehtiyac duyulur. Müasir tələblərə cavab verən belə çadırımız olmadığından yas mərasimlərində çox əziyyət çəkirdik. Bununla əlaqədar hörmətli deputatımıza müraciət edəndə o bunu yaxşı qarşıladı, kömək göstərəcəyini bildirdi.

Doğrudan da belə oldu. Çox keçmədi, səliqə-sahmanlı çadır Oriyat məscidinə hədiyyə edildi. Arif müəllimin bu diqqəti kənd sakinlərini ürəkdən sevindirdi. Xeyli vaxtdır yas mərasimlərimizi bu çadırda keçiririk. Hər dəfə də mərasim sahibləri çadırı hazırlayanlara, xüsusilə bu vacib işin formalaşmasında xidməti olan hörmətli Arif Rəhimzadəyə öz səmimi minnətdarlıqlarını bildirirlər.

**Yavər ABDULLAYEV,**
**Oriyat yaşayış məntəqəsinin sakini**

### Daha su sarıdan korluğumuz yoxdur

Əsas su mənbələrindən olan Kür çayı təkcə daşanda yox, elə geri çəkiləndə də insanlara narahatlıq gətirir, çoxlu problemlər yaradır. 2010-cu ilin daşqınlarını sahil boyunda yaşayanlar yəqin ki, unutmayıblar. Sonrakı illərin geriçəkilmələri isə yeni-yeni çətinliklər yaratdı, onları biz də yaşadıq.

Vaxtı ilə Nuruş Əliyev kolxozu və bu ərazidə yaşayan insanlar subasma təhlükəsi ilə üz-üzə qalanda bunun qarşısını almaq üçün əlavə qol qazmışdılar. Son illər Kürdə suyun səviyyəsi xeyli düşdüyündən buradakı nasos-stansiyanı işlətmək getdikcə çətinləşirdi. Çox yerə müraciət etsək də, dərdimizə çarə qılan tapılmırdı. Ona görə 2010-cu ilin Milli Məclis seçkilərində kəndimizdə hörmətli Arif Rəhimzadə ilə keçirilən görüşdə bu problemi də onun nəzərinə çatdırdıq. Bununla əlaqədar Arif müəllim Meliorasiya və Su Təsərrüfatı ASC-nin və digər əlaqədar təşkilatların rəhbərliklərinin qarşısında dəfələrlə məsələlər qaldırdı, vəziyyəti onlara hərtərəfli izah etdi.

Aylarla çəkilən zəhmət, nəhayət ki, öz bəhrəsini verdi. Məhz Arif müəllimin ardıcıl səyləri və böyük vəsait hesabına qolun üzərində ikinci nasos-stansiya quruldu. İndi ərazimizdə su sarıdan demək olar ki, çətinlik yoxdur. Kürün səviyyəsindən asılı olaraq hər iki nasos-stansiyanı növbəli şəkildə işlədə bilərik. Çəkdiyi zəhmətə, bizə olan diqqətinə görə hörmətli deputatımıza necə sağ ol deməyək?! Bu qayğıkeş, mehriban insana ürəkdən minnətdarıq.

**Ələsgər QAFAROV, Qədimkənd kənd sakini**

Minnətdarlıqla dolu məktubların sayını istənilən qədər artırmaq olar. Arif müəllim ömrü boyu minlərlə insana beləcə arxa, dayaq olub, onların qayğıları ilə yaşamağı bacarıb. Ona hər yerdə böyük el hörməti, tanıdığı, təmasda olduğu insanların sevgisini qazandıran da məhz budur. Arif müəllim neftçalalıları öz doğmaları, yaxınları kimi necə sevirsə, neftçalalılar da ona həmişə arxalana, güvənə bilərlər.



## "ASAN XİDMƏT" NEFTÇALADA



Son illər Azərbaycan həyata keçirdiyi bir çox layihələrlə dünyanın, dünya ictimaiyyətinin diqqətini özünə cəlb etməkdədir. Həmin layihələrdən biri də "ASAN xidmət"dir. Prezident İlham Əliyevin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılan "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərir.

"ASAN xidmət" mərkəzlərinin yaradılmasından əsas məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılmasına, onlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunmasına, peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, dövlət strukturlarına etimadın daha da genişləndirilməsinə, şəffaflığın artırılmasına, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə və digər müsbət irəliləyişlərin yaranmasına nail olmaqdır. Qısa müddət ərzində bu xidmətin ölkə vətəndaşları tərəfindən böyük razılıq hissilə qarşılanması da məhz bununla əlaqədardır.

Mətbuat səhifələrində, televiziya kanallarında bunu dəfələrlə oxumuşduq, görmüşdük, eşitmişdik. Amma heç vaxt belə yaxından izləməmişdik, şahidi olmamışdıq. Rayonumuzda noyabrın 20-dən fəaliyyətə başlayan "ASAN xidmət" bütün bunları əyani şəkildə nümayiş etdirdi.




Həmin gün səhər tezdən əraziyə çoxlu sayda rayon sakini toplaşmışdı. Adama elə gəlirdi ki, bu qədər vətəndaşın qəbulunda, yola salınmasında müəyyən narahatlıqlar, çaşqınlıqlar da olacaq. Əslində isə belə olmadı. Hər şey öz qaydasında, axarı ilə getdi. Növbə tutaraq qeydiyyatdan keçən insanlar istədikləri xidmətə nail olmaq üçün xüsusi təyinatlı "ASAN xidmət" avtobusuna daxil olurdular. Səyyar "ASAN xidmət" qrupunun rəhbəri Ülvi Həsənzadənin sözlərindən aydın oldu ki, qrupun 20 nəfər daimi işçi heyəti var. Bununla yanaşı 10 nəfərdən ibarət rayon gənclərinin könüllülər dəstəsi də onlara yaxından köməklik göstərirdi.

Notariat fəaliyyətini, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını, şəxsiyyət vəsiqələrinin və ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsini, sürücülük vəsiqələrinin dəyişdirilməsini, əmək pensiyalarının təyin edilməsini, mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsini, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsini, fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsini yerinə yetirən xidmətin əməkdaşları üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirdilər. Söhbət zamanı bunu xidmətdən istifadə edən rayon sakinləri də təsdiqlədilər.

"ASAN xidmət" avtobusundan düşən iki nəfərə yaxınlaşdıq. Kürkənd kəndindən gəldiklərini deyən Şamil Ələkbərov və Aqil Əhmədov şəxsiyyət vəsiqələrini dəyişdirdiklərini bildirdilər. Hər ikisi də xidmətin işindən razılıq etdi. Bankə qəsəbə sakini Qəhrəman Hüseynov, Neftçala şəhər sakini Alik Heybətov isə etibarnamə almaq istəyirdilər. Onların da çöhrəsindən sevinc yağırdı. Neftçala şəhər sakini Kəlbihüseyn Hüseynov dedi:

— "ASAN xidmət"in nümunəvi xidməti haqqında eşitmişdik, amma belə yaxından görməmişdik, iştirakçısı olmamışdıq. Deyilənlərə doğrudan da dəyərmiş. Əməkdaşlar öz vəzifələrinə həssaslıqla, məsuliyyətlə yanaşırlar. Yəqin mülkiyyət hüquqlarımı təsdiq edən sənədi də vaxtında ala biləcəyəm. Buna görə sadə, səmimi əməkdaşlara öz minnətdarlığımı bildirirəm.

Ürəkdən gələn belə səmimi minnətdarlıqları, razılıqları sonrakı günlərdə də az eşitmədik. Hər gün 250-dən artıq adama xidmət göstərən qrupun üzvləri onları razı salmaq üçün səylə çalışırdılar. Səmimiyyət, mehribanlıq burada çalışanların başlıca iş prinsipi, keyfiyyəti olduğundan qrupun xidmətindən hamı razılıqla söhbət açırdı.

"ASAN xidmət"in fəaliyyəti rayonumuzda dekabrın 4-dək davam edəcəkdir.

**Murad ƏHMƏDOV**

# Fövqəladə hallar naziri Kəmaləddin Heydərov rayonumuzda vətəndaşları qəbul etdi

Respublikanın mərkəzi icra orqanları tərəfindən yerlərdə vətəndaşların qəbulu uğurla davam edir. Rayon və şəhərlərə gələn bu orqanların rəhbərləri insanları dinləyir, onların müraciətlərinə həssaslıqla yanaşır, vətəndaşları narahat edən bir çox məsələləri, çətinlikləri, şikayətləri elə yerindəcə həll etməyə çalışırlar. Ötən qəbullar zamanı bunu dəfələrlə görmüşük, müşahidə etmişik. Bu da rayon sakinlərini, vətəndaşları razı salır, onlarda xoş əhvali-ruhiyyə yaradır.





Növbəti qəbul Neftçalada oktyabrın 30-da fövqəladə hallar naziri Kəmaləddin Heydərovla keçirilməli idi. Bununla əlaqədar respublika qəzetlərində qəbulun yeri, qaydaları, hansı müraciətlərə baxılacağı və digər məsələlər barədə elanın dərc olunması qəbula diqqəti daha da artırmışdı. Qəbulun keçiriləcəyi yerə — rayon yanğından mühafizə hissəsinin qarşısına çoxlu sayda adamın toplaşması da bununla bağlı idi.

Qəbul təyin olunan vaxtda başlandı. Burada rayon sakinlərilə yanaşı, Salyan, Biləsuvar rayonlarının, Şirvan şəhərinin vətəndaşları da iştirak edirdilər.

Qəbul başlamamışdan əvvəl rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev və fövqəladə hallar naziri hörmətli Kəmaləddin Heydərov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya gül dəstələri qoydular, ulu öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Həmin gün nazir tərəfindən qəbul edilən 22 vətəndaşın müraciətinin bir çoxu yerindəcə öz həllini tapdı, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verildi.

Bununla yanaşı kadr məsələlərilə bağlı 75, digər məsələlərlə bağlı müraciət etmiş 66 vətəndaş isə nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri tərəfindən qəbul olundu.

Sonda vətəndaşlar onlar üçün yaradılmış şəraitdən razılıq etdilər. Belə gözəl şəraitə, qayğı və diqqətə görə Prezident İlham Əliyevə özlərinin dərin minnətdarlıqlarını bildirdilər.

# Qarakənd üzərində vertolyot qəzasından 24 il ötür

## VƏTƏN SİZİ UNUTMAYACAQ



Xalqın, millətin həyatında, taleyində elə hadisələr olur ki, zamanlar keçsə belə onları unutmaq, yaddan çıxarmaq olmur. 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində baş verən vertolyot qəzası da belə hadisələrdəndir. Həmin gün içərisində xalqımızın mərd, qeyrətli övladlarının olduğu Mİ-8 vertolyotu erməni hərbçilərinin dəstələri tərəfindən xaincəsinə vurulmuşdu. Respublikanın o vaxtkı baş prokuroru, bütün xalqın böyük hörmətini qazanmış İsmət Qayıbovun, dövlət katibi Tofiq İsmayılovun, daxili işlər naziri Məhəmməd Əsədovun, Baş nazirin müavini Zülfü Hacıyevin, nazir müavini Qurban Namazəliyevin, millət vəkili Vaqif Cəfərovun, Vəli Məmmədovun, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyevin, telejurnalist Alı Mustafayevin və digər say-seçmə, igid Vətən övladlarının faciəli şəkildə həlak olmaları hər bir azərbaycanlının qəlbində sonsuz qəzəb hissi oyatmışdı.

Onlar açıq döyüşdə həlak olsaydılar, bəlkə də həmvətənlərimizə bu qədər təsir etməzdi. Həm də belə igid, mübariz insanlar düşmənə heç vaxt arxa çevirməzdilər, ölümü də kişi kimi mərdliklə qarşılayardılar. Amma çox təəssüf ki, belə olmamışdı. Onlar açıq döyüşdə yox, hiyləgərliklə, xaincəsinə məhv edilmişdilər. Xalqımızı, yüz minlərlə, milyonlarla insanları yandırıb yaxan, ürəklərini ağrıdan da məhz bu idi.

O vaxt respublika rəhbərliyinin hadisəyə münasibəti də insanlara az təsir göstərmədi. Hadisənin gündüz saat 14:42-də baş verməsinə baxmayaraq bu, Prezident Aparatına saat 19:55-də çatdırılmışdı. Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bülletenində isə bu məlumat 15:30-da səsləndirilmişdi. Bu qədər insanın həlak olduğu hadisənin ölkə rəhbərliyinə belə gec çatdırılmasına heç cür haqq qazandırmaq mümkün deyil. Məlumatın verilməsindəki yanlışlıq xüsusilə düşündürücüdür. Əvvəlcə vertolyotun guya dumanlı havada qəzaya uğraması iddia olunsa da, sonrakı günlərdə əsl həqiqəti xalqdan gizlətmək mümkün olmadı. Vertolyotu erməni hərbçiləri Barret 82 A1 silahı ilə vurmuşdular ki, bu da tamamilə yolverilməz idi. Qadağan olunmuş bu silah güclü yanğın törətdiyindən vertolyotun içində olanların hamısı yanaraq tanınmaz hala düşmüşdü.



O vaxt bu, xalqımıza qarşı törədilən yeganə qanlı hadisə deyildi. Mixail Qorbaçovun SSRİ rəhbərliyinə gəlişindən sonra məkrli planlarını həyata keçirməyə çalışan erməni cəlladları yenidən fəallaşmağa, qanlı hadisələr törətməyə başladılar. Nəticədə bir neçə il ərzində çoxlu sayda şəhərlərimizi, rayonlarımızı, yaşayış məntəqələrimizi itirdik, on minlərlə soydaşlarımız xüsusi amansızlıqla qətlə yetirildilər, yüz minlərlə həmvətənlərimiz dədə-baba torpaqlarını, ev-eşiklərini tərk etmək məcburiyyətində qaldılar. Bunun əsas səbəblərindən biri də Azərbaycan rəhbərliyinin yerində olmaması, Moskvanın verdiyi tapşırıqları canla-başla yerinə yetirməsi idi.

Həmin dövrdə vəziyyətin bu şəkil alması, respublika daxilindəki narahatlıqlar, xalqın hüquqlarının kobud şəkildə pozulması millətini sevən insanları, xüsusilə vəzifə sahiblərini dərindən düşündürürüdü. Onlar öz məsuliyyətlərini daha dərindən dərk edirdilər. Respublikanın Baş prokuroru İsmət İsmayıl oğlu Qayıbovun fəaliyyəti bu cəhətdən diqqəti xüsusilə çəkirdi. O təkcə peşəkarlığı, işinə, vəzifəsinə böyük məsuliyyətlə yanaşması ilə deyil, həm də yüksək insani keyfiyyətləri ilə xalqın, ölkə vətəndaşlarının dərin hörmətini qazana bilmişdi. Bunu İsmət Qayıbovla birlikdə həlak olan digər həmvətənlərimizin haqqında da söyləmək olar. Onlar da doğma Vətəni canlarından artıq sevməyi bacaran insanlar idilər. Belə olmasaydı onlar o gün düşmənin nəzarət etdiyi ərazinin üzərindən uçmağa razılıq verməzdilər.

Artıq zaman dəyişib. O vaxtdan 24 il keçir. Buna baxmayaraq bu insanlar bu gün də böyük məhəbbətlə xatırlanır, ehtiramla yad olunurlar. Adları küçələrdə və digər yerlərdə əbədiləşdirilib. Yəqin bu gün onların ruhları da şaddır. Ona görə ki, uğrunda mübarizə apardıqları Azərbaycan dəyişərək inkişaf edib, bir-birindən layiqli uğurlara imza atıb, regionun lider ölkəsinə çevrilib. Dinc səma altında, əmin-amanlıq şəraitində yaşayan ölkə vətəndaşları həyatlarını xoş və firavan keçirirlər. Əgər o vaxt İsmət Qayıbov, Məhəmməd Əsədov, Tofiq İsmayılov və neçə-neçə igid Vətən övladları özünü qurban verməsəydi, yəqin ki, bu günkü xoşbəxtliyimiz də olmazdı. Onların hər birinə qəni-qəni rəhmət diləyir, qəbirləri nurla dolsun deyirik.

**H.ƏSƏDOV**

# Daha beş kəndə təbii qaz verildi

Kürqarabucaq, Birinci Qaralı, Aşağı Surra, Qədimkənd, Aşağı Qaramanlı, Qaçaqkənd kəndlərindən və digər yaşayış məntəqələrindən sonra, nəhayət, növbə Tatarməhlə kənd inzibati dairəsi üzrə nümayəndəliyin ərazisindəki kəndlərə də gəlib çatdı. Həmin gün bu ərazidə yaşayan insanlar da həmişə böyük həsrətlə, intizarla gözlədikləri günün böyük sevincini, fərəhini yaşayacaqdılar.





Bu kəndlərə də təbii qaz veriləcək, evlərdə "mavi alov" şölələnəcəkdi. Əlamətdar gün münasibətilə Abasallı kəndində təşkil olunan tədbirə çoxlu sayda insanın toplaşması da bununla bağlı idi. Belə xoş gündə rayonumuzun deputatı hörmətli Arif Rəhizadənin onların yanında olması adamların sevincini daha da artırmışdı.

Mərasimi Tatarməhlə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Fəxrəddin Nəzirov açaraq kənd sakinləri adından göstərdiyi böyük qayğı və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

Milli Məclisin deputatı hörmətli Arif Rəhimzadə kəndlərə təbii qazın verilməsi münasibətilə bu ərazidə yaşayan çoxsaylı insanları ürəkdən təbrik edərək onlara xoş günlər arzuladı. Bütün bunların Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı nəticəsində həyata keçirildiyini vurğuladı və bu işlərin bundan sonra da ardıcıllıqla davam etdiriləcəyini dilə gətirdi.

Bu səmimi təbrikə Salyan regional qaz istismar idarəsinin rəisi vəzifəsini icra edən Qənimət Səmədov da qoşularaq kəndlərin sakinlərinə isti ocaq, xoş günlər arzuladı.

Sonra söz şəhid atası, kənd sakini Gülməmməd Əliyevə verildi. Son vaxtlar ərazidə drenaj kanalların qazılmasını, içməli su mənbələrinin qaydaya salınmasını, iki kilometrdən artıq yüksək gərginlikli elektrik xətlərinin dəyişdirilməsini, yeni transformatorun quraşdırılmasını və digər abadlıq işlərinin həyata keçirilməsini vurğulayan Gülməmməd Əliyev bu gün daha böyük sevinc hissi yaşadıqlarını qeyd etdi. Onlara bu sevinci yaşadanlara razılığını bildirdi.

Hörmətli Arif Rəhimzadə məşəli odluğa yaxınlaşdıraraq qazı alovlandırdı. Ətrafdakılar buna özlərinin sürəkli alqışları ilə cavab verdilər. Bütün bunlar ərazidəki insanların dövlətimizə, dövlətimizin başçısına olan böyük minnətdarlığının, sonsuz razılığının bariz nümunəsi idi.

Daha sonra bu sevinc Boyat və Ballıcallı kəndlərində yaşandı. Bu ərazidəki insanlar da bu günü çoxdan gözləyirdilər. Elə buna görə təyin olunan yerə burada da çoxlu sayda adam toplaşmışdı. Hamının da çöhrəsindən sonsuz fərəh yağırdı.

Təntənəli mərasimi Boyat kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Asif Qafarov açaraq kəndə təbii qazın verilməsini dövlətin sadə insanlara qayğısı kimi dəyərləndirdi və buna görə bütün kənd sakinləri adından möhtərəm Prezidentə minnətdarlıq etdi.

Tədbirdə iştirak edən rayon icra hakimiyyəti başçısının müavini Nəriman Xəlilov ürək sözlərini bildirdi. Qeyd etdi ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev ötən ilin mayında rayonumuzda olarkən burada görülən quruculuq, abadlıq işlərinə yüksək qiymət verməklə yanaşı Neftçalada qazlaşmanın sürətləndirilməsini də əsas tələblərdən biri kimi qarşıya qoymuşdu. O vaxtdan bəri bu istiqamətdə geniş tədbirlərin həyata keçirildiyini vurğulayan Nəriman müəllim son vaxtlar neçə-neçə kəndlərimizin, yaşayış məntəqələrimizin qazlaşdırılmasını da bu işlərin davamı kimi dəyərləndirdi və xoş gün münasibətilə Boyat və Ballıcallı kəndlərinin sakinlərini təbrik etdi, onlara isti ocaq, fərəh dolu günlər arzuladı. Bu səmimi təbrikə qaz çəkilişlərini həyata keçirən Salyan regional qaz istismar idarəsinin rəhbərləri, gələn qonaqlar, kənd sakinləri də qoşuldular. Onlar da ürək sözlərini bildirdilər. Belə xoş günlər üçün dövlətimizə, dövlət başçımıza minnətdarlıq etdilər.

Rayon icra hakimiyyəti başçısının müavini Nəriman Xəlilov qazı alovlandırdı. Bir anda şölələnən "mavi alov" ürəklərə istilik, hərarət gətirdi, kəndlərin sakinlərinə böyük sevinc bəxş etdi.

**Rabil ƏSƏDOV**

* * *

**Sonra bu sevinci, fərəhi II Qaralı kəndinin sakinləri də yaşadılar. Rayon icra hakimiyyəti başçısının müavini Nəriman Xəlilovun iştirakı ilə burada da təbii qazın açılışı oldu. II Qaralı kəndinin sakinləri də göstərdiyi qayğı və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə özlərinin dərin minnətdarlıqlarını bildirdilər.**

**Rayonumuzda qazlaşma davam edir.**

# Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərəcək sahibkarlara güzəştli kreditlər veriləcəkdir

Bu fikir bu günlərdə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin birgə təşkilatçılığı ilə Neftçala rayonunda sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair keçirilən işgüzar forumda səsləndirildi.

Tədbiri Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev açaraq bununla əlaqədar görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışmışdır.

İşgüzar forumda sahibkarlara güzəştli kreditlərin alınması mexanizmi barədə ətraflı məlumatlar verilmiş, Neftçala Sənaye Məhəlləsində sahibkarların müvafiq investisiya layihələrinin həyata keçirilməsi təşviq olunmuş, sənaye məhsullarının istehsalı və emalı ilə bağlı hazırlanmış nümunəvi investisiya layihələrinin, o cümlədən plastik qapı-pəncərə, dam örtükləri, dəmir qapı, plastik qablar, polietilen paketlər, corab, təbii məhsullardan sabun istehsalı üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilmiş, sahibkarların təklifləri öyrənilmiş, onlarla müvəkkil kredit təşkilatları arasında işgüzar münasibətlər qurulmuş, maarifləndirici materiallar paylanmışdır

110-a yaxın sahibkarın iştirak etdiyi forumda çıxış edən Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev qeyd etmişdir ki, 2015-ci ilin ötən dövrü ərzində 4543 sahibkara 197,3 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 10700-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verir. Qeyd edilmişdir ki, Neftçala Sənaye Məhəlləsində investisiya layihələrinin həyata keçirilməsi üçün güzəştli kreditlər verilə bilər. Ümumilikdə, dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, son illər 132 müasir sənaye müəssisəsinin maliyyələşdirilməsinə 409 milyon manatdan çox güzəştli kredit verilmişdir. Bu müəssisələrdən 115-i istifadəyə verilmiş, 17-si üzrə işlər davam etdirilir.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru Rövşən Nəcəf Neftçala Sənaye Məhəlləsində sahibkarlara təklif olunacaq ümumi xidmətlər, yaradılacaq infrastruktur, istehsal sahələri barədə tədbir iştirakçılarına məlumat vermişdir. Bildirilmişdir ki, sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin məşğulluğunun artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2015-ci il tarixli Sərəncamına uyğun olaraq, Neftçala rayonunda Sənaye Məhəlləsinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu məqsədlə, Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən 10 ha torpaq sahəsi ayrılmışdır. Təsdiq olunmuş layihəyə əsasən, ərazidə hər biri 2 moduldan ibarət olan və ümumi sahəsi 15 min kvadratmetrə yaxın olan 8 istehsal bloku, inzibati bina və bütün zəruri infrastruktur yaradılaraq sahibkarların istifadəsinə veriləcəkdir. Bundan başqa, inzibati binada sahibkarların fəaliyyətinin səmərəli təşkili üçün hüquqi, bank, sığorta, ümumi mühasibatlıq, eləcə də təlimlərin keçirilməsi təklif olunacaqdır. Hazırda Sənaye Məhəlləsinin fəaliyyəti üçün inzibati bina, ümumi sahəsi 8 min kvadratmetrə yaxın olan 4 ədəd istehsal bloku və zəruri infrastrukturun tikintisi davam etdirilir.

İşgüzar forumda Aran iqtisadi rayonunda fəaliyyət göstərən 68 sahibkara 12.6 milyon manat güzəştli kredit verilmişdir. Verilmiş kreditlər əsasən, cins heyvandarlıq, müasir istixana komplekslərinin yaradılması, əkinçilik və s. sahələrin inkişafına yönəldiləcək.

Tədbir zamanı balıq yemi, nasos və avtoqoşqu istehsalı üzrə fəaliyyət göstərən iki sahibkarlıq subyektinə Neftçala Sənaye Məhəlləsinin iştirakçısı statusunu təsdiq edən qeydiyyat şəhadətnaməsi təqdim edilmişdir.

## Yaşıllaşdırma kampaniyası

# 3000-DƏN ÇOX AĞAC ƏKİLİB

Yaşıllığı təmiz hava, həyat, sağlamlıq kimi dəyərləndirənlər heç də yanılmırlar. Dünyanın hər yerində yaşıllıqların genişləndirilməsinə səy göstərilməsi, qorunmasına diqqətin artırılması, bununla əlaqədar ardıcıl tədbirlərin həyata keçirilməsi də məhz bununla bağlıdır. Respublikamızda da bu proses getdikcə genişlənməkdədir. Son illərdə ölkəmizdə çoxlu sayda parkların, bağların salınması, yeni yaşıllıq zonalarının yaradılması əhali tərəfindlən böyük razılıq hissilə qarşılanır. Bu mühüm, vacib işdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılan İDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin həyata keçirdiyi genişmiqyaslı tədbirlər xüsusilə böyük əhəmiyyət kəsb edir. İndi respublikamızın elə bir guşəsi yoxdur ki, orada bu Birliyin təşəbbüsü ilə yeni-yeni yaşıllaşdırma tədbirləri, ağacəkmə aksiyaları həyata keçirilməsin.





Leyla xanım Əliyevanın nəcib təşəbbüsünə yaşıllığı sevən neftçalalılar da ürəkdən qoşulublar. Bunun nəticəsidir ki, rayonumuzda da müntəzəm olaraq ağacəkmə aksiyaları keçirilir, yeni-yeni yaşıllıq sahələri yaradılır. Bu günlərdə daha bir belə aksiya şəhər stadionunun yaxınlığında, xeyli vaxtdan bəri abadlaşdırılaraq ekoloji cəhətdən sağlamlaşdırılan "Axmaz" gölünün sahilində keçirilmişdir. Həmin aksiyada rayonumuzun, demək olar, bütün idarə və müəssisələrinin kollektivləri iştirak edirdilər. Özü də həvəslə, içdən gələn sevgi ilə. Başqa cür ola da bilməzdi. Hamı yaşıllığın insan həyatındakı, sağlamlığındakı rolunu, əhəmiyyətini yaxşı bildiyindən əlindən gələni əsirgəmirdi, səylə çalışırdı. Qısa vaxtda ərazidə 3000-dən çox şam ağacının əkilməsi də məhz bu birliyin, əlbir səyin nəticəsidir.

İnsanlar təkcə ağac əkməklə vəzifələrini bitmiş hesab etmirlər. Həm də körpə fidanların boy atıb böyümələri üçün lazımi şərait yaradırlar. Eşitdiklərimizdən, öyrəndiklərimizdən aydın oldu ki, ağaclara qulluq da daimi olacaq, becərmə işləri də ardıcıllıqla davam etdiriləcəkdir.

**Fərhad AĞAYEV**

# Yollara çınqıl döşənib

Sarıqamış inzibati ərazisi rayonumuzun ən ucqar yaşayış yerlərindəndir. Sarıqamış, Yeniqışlaq, Haqverdili, Mikayıllı, Dalğa, Sahiloba kəndlərinin yerləşdiyi bu ərazidə 2000-dən çox əhali yaşayır. Ayrı-ayrı kəndlərdəki mədəniyyət, səhiyyə, rabitə, məişət, ticarət müəssisələri, obyektləri əhalinin bu və ya başqa xidmətlərə olan ehtiyaclarının ödənilməsində çox mühüm rol oynayır. Onlar rayon mərkəzinə, daha uzaq ünvanlara getmədən bir çox məsələləri elə yerindəcə həll etməyə imkan tapırlar və bu işlər getdikcə genişlənməkdə, müasirləşməkdədir.



Son vaxtlar ərazidə abadlaşma işlərinə diqqətin artırılması, ətrafda səliqə-sahman yaradılması, yaşıllıqların durmadan genişləndirilməsi əhalinin razılığına səbəb olur, onları ürəkdən sevindirir. Ən böyük yaşayış məntəqəsi olan Yeniqışlağa suyun gəlməməsi ciddi narahatlığa səbəb olurdu. Görülmüş tədbirlər nəticəsində sıradan çıxmış iridiametrli borudakı nasazlıq aradan qaldırılmış, kəndə su verilişi bərpa olunmuşdur. Kənddəki elektrik təchizatının yaxşılaşdırılması üçün sıradan çıxmış transformatorun yenisi ilə əvəz olunması da müsbət haldır. Verilən məlumatlardan aydın oldu ki, yaxın vaxtlarda Yeniqışlaq kəndindəki elektrik dirəkləri və naqilləri də yeniləri ilə əvəz olunacaqdır.

Ən böyük problemlərdən, çətinliklərdən biri də kəndarası yolların bərbad vəziyyətdə olması idi. Belə vəziyyət ərazidə yaşayan insanları daha çox narahat edirdi. Bununla əlaqədar Sarıqamış kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İldırım Zeynallı dedi:

— Vəziyyətlə bağlı ərazidəki insanlardan çoxlu sayda şikayətlər eşidirdik. Vəziyyət barədə ilk məlumatı rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevə verdik və elə ilk böyük dəstəyi də rayon rəhbərindən aldıq. Rayonumuzun inzibati ərazi nümayəndəliklərində kəndarası yolların qaydaya salınmasında layiqli xidməti olan Azərbaycan kənd investisiya layihəsi bizim də təklifimizə müsbət cavab verdi. Lazımi tədbirlər və hazırlıq işləri həyata keçirildikdən sonra ərazimizdəki kəndlərdə, yaşayış məntəqələrində də yollarımızın qaydaya salınması istiqamətində işlərə başlandı. Haqverdili, Mikayıllı, Yeniqışlaq kəndlərindəki yollara üst-üstə 11 kilometr uzunluğunda çınqıl döşənib. Bununla yanaşı 10 kilometrə yaxın yollarda isə hamarlama işləri həyata keçirilib. Görülən bu tədbirlərdən sonra kəndarası yollarda vəziyyət xeyli dərəcədə yaxşılaşıb. Hərəkət etmək asandır. Yağışlı-yağmurlu havalarda palçıq olmur. Bu işlərin həyata keçirilməsində bizə göstərdikləri köməyə görə rayon rəhbərliyinə və layihənin rəhbərliyinə minnətdarlığımızı bildiririk.



İnzibati ərazi dairəsi üzrə nümayəndə İldırım Zeynallının sözlərindən aydın oldu ki, son vaxtlar müəyyən işlərin görülməsinə, bir sıra problemlərin aradan qaldırılmasına baxmayaraq görüləsi işlər də az deyil. İndi onlar yaşıllıqların genişləndirilməsi, əhali üçün çətinliklər yaradan bir sıra məsələlərin aradan qaldıılması istiqamətində tədbirlər görürlər.

**M.ƏHMƏDOV**

## Rayonumuzun qonaqları

# ŞEİR, SƏNƏT BAYRAMINDA

Noyabrın 14-də Heydər Əliyev Mərkəzində tanınmış şair, yazıçı, publisist, dramaturq,.. hər şeydən başlıcası isə sadə, səmimi insan, böyük mənada ziyalı, ləyaqətli bir şəxsiyyət olan Əjdər Olla oxucuların çoxdan gözlənilən görüşü keçirildi. Bu görüşə qabaqcadan geniş hazırlıq görüldüyündən, şəhərin görməli yerlərində afişalar asıldığından, ədəbiyyat həvəskarlarına, hörmətli qonaqlara zəng edilərək, dəvətnamələr göndərilərək onların hamısı bu barədə xəbərdar edildiyindən görüş başlanmamışdan əvvəl Mərkəzin foyesində çoxlu sayda adam var idi. Kimisi həyətdə gəzişərək tanışlarla söhbət edir, kimisi də Mərkəzin foyesindəki eksponatlarla, Əjdər Olun əsərlərindən ibarət kitab sərgisi ilə tanış olurdu. Rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova, rayonun rəhbər işçiləri, ayrı-ayrı idarə və müəssisələrin kollektivləri də burada idilər.



Təyin olunan vaxta — saat 11-ə az qalmış Əjdər Ol və sənət dostları gəlib çıxdılar. Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, tanınmış qiraət ustası, respublikanın Əməkdar artisti Ağalar Bayramov, məlahətli səsə malik muğam ustası, Əməkdar artist Firuz Səxavət, tanınmış tarzən, Əməkdar artist Əliağa Səfiyev, kamançaçalan Xəyyam Məmmədov və başqaları gələnlərin arasında idilər. Meydana toplaşanlar tərəfindən hərarətlə qarşılanan Əjdər Ol və ətrafındakılar əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə ümummilli lider Heydər Əliyevin meydandakı abidəsi önünə gəldilər, oraya tər çiçəklər düzdülər. Daha sonra tədbirin keçiriləcəyi Heydər Əliyev Mərkəzinin möhtəşəm binasına daxil oldular.





Mərkəzdəki böyük salonda keçirilən görüşü giriş sözü ilə rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova açaraq qonaqları salamladı, məclisi aparmaq üçün sözü AYB-nin katibi Rəşad Məcidə verdi. Rəşad müəllim salona toplaşan çoxsaylı iştirakçıları ürəkdən salamladı, sözə, sənətə dəyər verərək bu soyuq havada buraya gəldikləri, 300 nəfərdən artıq tamaşaçı tutan bu böyük salonu doldurduqları üçün onlara təşəkkürünü bildirdi. Sonra sözü oxucuların görüşünə toplaşdıqları şair-yazıçı-dramaturq... Əjdər Ola verdi. Əjdər müəllim ərazicə, təbii şəraitinə görə onun anadan olub böyüdüyü, boya-başa çatdığı Hacıqabul rayonuna yaxın olan Neftçalanın sadə, səmimi, zəhmətkeş insanlarına, ədəbiyyatın, mədəniyyətin, incəsənətin qədrini bilən, sözə dəyər verən yaradıcı ziyalılarına çoxdan bələd olduğunu, onları qəlbən sevdiyini, buna görə çox yerlərdən dəvət alsa da birinci neftçalalıların dəvətini qəbul etdiyini, birinci onların görüşünə gəldiyini bildirdi, özünə xas olan həzin bir ahənglə şeirlərini söylədi.

Rəşad Məcid də şair dostunun xoşladığı şeirlərini əzbər söylədi, bu şeirlərin Əjdər müəllimin nəcib hiss və duyğularından qaynaqlandığını, oxucuların da qəlbini xeyirxah hiss və duyğularla doldurduğunu vurğuladı.

Sonra söz musiqiyə verildi. Respublikanın Əməkdar artisti Firuz Səxavət tarzən Əliağa Səfiyevin və kamançaçalan Xəyyam Məmmədovun müşayiəti ilə Əjdər Olun şeirlərinə bəstələnmiş mahnıları oxudu, qəzəllərini ifa etdi. Müğənninin təsirli səsi, ifaçıların usta müşayiəti dönə-dönə dəyərləndirildi, gur alqışlara səbəb oldu. Tanınmış qiraət ustası, respublikanın Əməkdar artisti Ağalar Bayramovun ifasında Əjdər Olun Vətənə, xalqa, millətə, vətənpərvərliyə dair odlu şeirləri, lirik poeziya nümunələri də görüşə toplaşanlar tərəfindən hərarətlə qarşılandı.

Əjdər Olun poeziyasının vurğunu olan, bu poeziyanın işığına toplaşan neftçalalı oxucular adından Azıdlıq Uğrunda Mübariz, 20 Yanvar Cəmiyyəti rayon şöbəsinin sədri, yanvar əlili Fərman Hüseynov və uzun illər rayonumuzun təhsilinə rəhbərlik etmiş Əməkdar müəllim Tədbir Mahmudov danışdılar. Hər iki çıxış maraqla dinlənildi, hərarətlə alqışlandı. Tədbir Mahmudov çıxışının sonunda Əjdər Olu və onunla birlikdə gəlmiş qonaqları tədbir bitdikdən sonra zəhmətlə hasilə gətirdiyi "Təhsil muzeyi"nə baxmağa dəvət etdi. Bu dəvət qonaqlar tərəfindən məmnunluq hissi ilə qəbul olundu.

Filologiya üzrə fəlsəfə doktoru İlham Abbasov Əjdər Olun ədəbi fəaliyyətindən geniş söhbət açdı, bir ədəbiyyatşünas alim kimi onun çoxşaxəli yaradıcılığını hərtərəfli təhlil etdi. Göstərdi ki, Əjdər Ol özünün müstəqil yaradıcılıq yolu, orijinal dəst-xətti olan bir sənətkardır. O nə poeziyada, nə də nəsrdə heç kəsi təqlid etmir, heç kəsin yolu ilə getmir, heç kəsə bənzəmək istəmir, hər bir sahədə yalnız özü olmağa çalışır. Elə buna görə də o, ədəbiyyatımızda seçdiyi təxəllüsə uyğun özü — Əjdər Ol olub. Konkret insanların, tanınmış şəxsiyyətlərin güclü və zəif cəhətlərini, müsbət və mənfi keyfiyyətlərini, fərdi portret cizgilərini obyektiv şəkildə ümumiləşdirərək ilk dəfə cəsarətlə ədəbiyyata gətirən də elə Əjdər Ol olub. Əjdər Ola qədər tanınmış şəxsiyyətlər barədə belə açıq, duzlu, məzəli, lakonik bir dillə yazan ikinci bir müəllif olmayıb. Bu, əsl yenilikçilik, əsl novatorluqdur. Əjdər müəllim kimdən, nədən yazırsa yazsın, orada zərif bir təbəssüm, incə bir yumor duyulur. Əjdər Ol hər bir vəziyyətdə işıqlı bir cəhət tapmağı, nikbin bir ovqat yaratmağı, gülməyi və güldürməyi bacarır...

Tədbirdə Əjdər müəllim görüşünə gəldiyi oxucularına təkcə şeir söyləmədi, qələmə aldığı duzlu, məzəli əhvalatlardan, canlı lətifələrindən də geniş danışdı, onlara xoş ovqat bəxş etdi. Bütün bunlar keçirilən tədbiri öxucularla Əjdər Olun səmimi bir ünsiyyətinə çevirdi.

Əjdər müəllim həm də gözəl dramaturqdur. Onun pyesləri müxtəlif teatrların səhnəsində tamaşaya qoyulub, ssenariləri əsasında maraqlı filmlər çəkilib. Görüşdə nümayiş etdirilən Əjdər Olun ssenarisi əsasında çəkilmiş "Usta Yusifin kamançası" komediyası da tamaşaçılar tərəfindən hərarətlə qarşılandı.

Sonda Əjdər Ol çoxlu sayda oxuculara avtoqraflar verdi, təzə çapdan çıxmış müxtəlif kitablarını onlara hədiyyə etdi, oxucularla birlikdə xatirə şəkilləri çəkdirdi.

**Qurbanxan PİRƏLİYEV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**





* * *

**Heydər Əliyev Mərkəzində keçirilən oxucularla görüşdən sonra Əjdər Ol və onunla birlikdə gəlmiş qonaqlar görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor, Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki Hacı İmamverdi Əbilovun ev muzeyində də olmuş, qocaman alimi ziyarət etmiş, buradakı nadir kitabxana ilə tanış olmuşlar. Əjdər Ol və onunla birlikdə gəlmiş qonaqlar rayonumuzdan zəngin təəssüratla ayrılmışlar.**

## Ədliyyə İşçilərinin Peşə Bayramı münasibətilə

# QANUNUN ALİLİYİNƏ HÖRMƏT HƏR BİRİMİZ ÜÇÜN ƏSAS PRİNSİPDİR

Azərbaycan ədliyyəsinin keşməkeşli və şanlı tarixi var. Hər bir cəmiyyətdə dövlətin idarə olunmasinda ədliyyə sisteminin rolu bilavasitə mövcud siyasi rejimin xarakterindən asılıdır. Mahiyyət etibarı ilə dövlətin hüquq siyasətinin həyata keçirilməsində, hüququn aliliyinin, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasında, milli qanunvericiliyin formalaşdırılmasında əsas rol oynayan ədliyyə sistemi yalnız demokratik cəmiyyətdə, hüquqi dövlətdə bu funksiyalarını həyata keçirə bilər. Məhz bu baxımdan Azərbaycan ədliyyəsinin inkişaf yolu bir neçə mərhələdən keçmişdir.

Ədliyyəmizin tarixinin şanlı dövrlərindən biri Azərbaycan Demokratik Respublikasının mövcud olduğu illərə təsadüf edir. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cumhuriyyətində ədliyyə sahəsinə böyük əhəmiyyət verilmişdir. Təsadüfi deyil ki, məhz Xalq Cumhuriyyətinin elan olunduğu gün — 1918-ci il mayın 28-də Ədliyyə Nazirliyi təsis edilmişdir. Azərbaycan Demokratik Respublikasının mövcud olduğu qısa müddət ərzində ədliyyə orqanları və məhkəmələrin fəaliyyətinin təşkil edilməsi ilə bağlı bir sıra qərarlar qəbul olunmuş, tədbirlər həyata keçirilmişdir.



1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmişdir. Məhkəmələrin, ədliyyə və istintaq strukturlarının bərpası, onların maddi texniki təminatı istiqamətində müəyyən işlər görülmüş, 6 aylıq kurslar təşkil edilmiş, Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeçiliyinə verilmişdir. Qısa müddət ərzində bir sıra qanun layihələri Ədliyyə Nazirliyinin təşəbbüsü ilə Parlamentin müzakirəsinə təqdim olunmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti elan edildikdən az sonra, inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə mövcud ədliyyə sistemi ləğv edilərək Xalq Ədliyyə Komissarlığı yaradılmışdır. Komissarlığın səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsi və digər orqanlara verilmişdir. 1933-cü ildə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmişdir. 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni əsasnaməsi təsdiq edilərək onun səlahiyyətləri əsaslı şəkildə məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə isə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür. Göründüyü kimi, ölkəmizin ədliyyə sistemi 60-cı illərin sonunadak əsl repressiyaya uğramışdır. Ədliyyə sahəsinə olan bu münasibət onun təşkilatlanaraq təkmilləşməsinə, inkişafına böyük zərbə vurmuşdur.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan ədliyyəsinin tarixinin sovet dövrünün yeni mərhələsi başlandı. Milli mənafeləri hər şeydən uca tutan uzaqgörən siyasətçi hələ 70-ci illərdə respublikanın gələcəkdə müstəqil dövlət kimi mövcudluğuna və inkişafına zəmin yaratmaq istiqamətində çox məharətlə tədbirlər həyata keçirirdi. Ölkə iqtisadiyyatı məhz bu məqsədə uyğun istiqamətlərdə inkişaf etdirilir, milli təhlükəsizlik, hərbi və digər sahələrdə milli kadr korpusu yetişdirilir və sair tədbirlər görülürdü.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən və ümummilli lider Heydər Əliyev ölkədə yenidən siyasi hakimiyyətə gəldikdən sonra Azərbaycan ədliyyəsinin həyatında tamam fərqli bir dövr başlandı. Bu dövr ədliyyə sistemimizin sürətli inkişafı, fəaliyyət istiqamətlərinin, funksiya və səlahiyyətlərinin genişlənməsi, işinin və strukturunun təkmilləşməsi, öz mahiyyətinə xas hüquqi dövlət və demokratik cəmiyyətlər üçün zəruri olan missiyalarını əldə etməsi ilə xarakterikdir.

Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyətli mövqeyi sayəsində qisa müddət ərzində ölkəmizdə zəruri şərait yaradılaraq milli hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl, mühüm addimlar atildi. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi ilə milli dövlət quruculuğunun aparılmasına, ölkə həyatının bütün sahələrində məqsədyönlü islahatların həyata keçirilməsinə sabit hüquqi zəmin yaradıldı. Hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq, eləcə də ədliyyə sistemində islahatlar həyata keçirildikcə ədliyyə orqanlarının inkişafı, onların fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin beynəlxalq standartlara uyğun qurularaq möhkəmləndirilməsi istiqamətlərində böyük uğurlar əldə edilmişdir. Nəticədə ölkəmizin Ədliyyə Nazirliyi də inkişaf edərək hüquqi dövlətdə layiq olduğu yeri tutmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycan Respublikasını daha dinamik, sürətli inkişaf yoluna çıxarmışdır. Ölkəmizin ədliyyə sisteminin inkişafı və təkmilləşdirilməsi daim dövlət başçısı cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Bu dövrdə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı yüzlərlə normativ hüquqi akt qəbul olunub. "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Qanunun qəbulu, Prezident İlham Əliyevin 18 aprel 2006-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında əsasnamə"nin təsdiq edilməsi Ədliyyə Nazirliyinin fəaliyyətinin normativ hüquqi əsaslarının təkmilləşdirilməsində böyük, əhəmiyyətli addım oldu. Yeni əsasnamənin bir tarixi əhəmiyyəti də ondan ibarət oldu ki, o, ədliyyə fəaliyyətinin cəmiyyətimizdəki əsl rolunu və yerini qəti əks etdirdi. Bu sənəd son illərdə hüquq sistemimizdə aparilan islahatları, qəbul edilmiş qanunvericilik aktlarını özündə əks etdirməklə ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirdi, onların yeni vəzifələrini müəyyənləşdirdi. Ədliyyə sahəsində baş verən keyfiyyətcə yeni dəyişikliklər Ədliyyə Nazirliyinin işinin və strukturunun daha da təkmilləşdirilməsini, bu dəyişikliklərə uyğunlaşdırılmasını, fəaliyyətinin şəffaflaşdırılmasını, aşkar şəklə salınmasını, əhalinin hüquqi yardıma tələbatının daha da optimallaşdırılmasını tələb edirdi.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 17 avqust 2007-ci il tarixli Fərmanının bu baxımdan çox böyük əhəmiyyəti oldu. Dövlət başçısnın imzaladığı bu fərman və nazirliyin yeni strukturunun təsdiq edilməsi Azərbaycan ədliyyəsinin təkmilləşməsində yeni mərhələyə çevrildi, ədliyyə sistemində miqyaslı islahatlara yol açdı.

Ədliyyə orqanlari işçilərinin, hakimlərin və digər hüquqşünas kadrların ixtisaslarının artırılması və peşə vərdişlərinə yiyələnməsi işinin daha yüksək səviyyədə qurulmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Hüquq Tədris Mərkəzinin əsasında ali statuslu təhsil ocağının — Ədliyyə Akademiyasının yaradılmasının hüquqşünas kadrların ixtisas və peşə hazırlığı səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyəti olmuşdur.

Fərmanda həllini tapan məsələlərdən biri də yerlərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatı işinin sadələşdirilməsi məqsədilə hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələri və rayon (şəhər) vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı şöbələrinin əsasinda rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılmasıdır.

Qeyd olunan fərmanla regional ədliyyə şöbələrinin yaradılması Azərbaycan ədliyyə sistemində bir yenilikdir. Dövlət başçısının Fərmanında regional ədliyyə şöbələrinin yaradılması qərara alınarkən yerlərdə ədliyyə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və onlara nəzarətin gücləndirilməsi, əhalinin ədliyyə orqanlarına müraciət etmə imkanlarının asanlaşdırılması, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəsinin artırılması məqsədi əsas götürülmüşdür.

Ədliyyə ədalət sözündəndir. Ona görə də istər Ədliyyə Nazirliyi, istərsə də məhkəmə sistemində çalışan hər bir ədliyyə işçisi ilk növbədə haqqın və ədalətin keşiyində dayanmalıdır. Öz mənəvi saflığı, ədalətli olmağı, peşəkarlığı, vətəndaşlara qayğılı münasibəti ilə Azərbaycan ədliyyəsinin nüfuzunu qorumalı, onun adını daim uca tutmalıdır. Hazırda ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi normativ hüquqi aktların hüquqi ekspertizasını, uçotunu və qeydiyyatını aparır, qanunvericiliyin təkmilləşdirilməsində iştirak edir, qanun layihələri hazırlayır, normativ sənədlərə dair rəylər verir, hüquqi maarifləndirmə işi aparır.

Hər il peşə bayraminda ədliyyə işçiləri müstəqil Azərbaycan dövlətinin banisi və müasir hüquq sistemimizin müəllifi olan ulu öndər Heydər Əliyevin abidəsi önünə gələrək bu dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiram hissi ilə yad edir, Azərbaycan ədliyyəsinin keçdiyi şərəfli tarixə, görülən işlərə, qarşıda duran vəzifələrə nəzər salır, bu günü əsl bayram əhval-ruhiyyəsi ilə keçirirlər. Bu gün biz qürur hissi ilə deyirik ki, bilavasitə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dinamik iqtisadi inkişaf ölkəmizi regionun lider dövlətinə çevirmiş, Azərbaycan dünyada analoqu olmayan inkişaf sürətinə nail olmuşdur. Biz peşə bayramımızı qeyd edərkən həm də Azərbaycan ədliyyəsinin inkişafina görə qürur hissi duyuruq.

Şübhə yoxdur ki, ədliyyə işçilərimiz bundan sonra da ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik amallarına sadiq qalacaq, qanunların aliliyini həmişə əldə rəhbər tutacaqlar.

**Elmәddin İBRAHİMOV,**
**rayon məhkəməsinin sədri**

# Bayraq gününə həsr olunmuş açıq dərs

Bu günlərdə Neftçala humanitar təmayüllü "Muğan" liseyinin Azərbaycan dili və ədəbiyyat müəllimləri Günel Məmmədova və Dinarə Sərdarzadənin rayonun Heydər Əliyev Mərkəzində 9 noyabr Bayraq Gününə həsr olunmuş VII-VIII sinif şagirdləri ilə birlikdə hazırladıqları layihə-viktorinanın açıq təqdimatı keçirilmişdir.



Öncə təqdimat iştirakçıları ulu öndər Heydər Əliyevin Mərkəzin önündəki abidəsini ziyarət edərək oraya tər çiçəklər qoydular. Sonra tədbir iştirakçıları — şagirdlər, müəllimlər, valideynlər, ayrı-ayrı tədris müəssisələrinin, rayon təhsil şöbəsinin nümayəndələri Heydər Əliyev Mərkəzinin salonuna toplaşdılar. Salon rəsmi dövlət atributları və rəmzləri, plakatlar və şəkillərlə bəzədilmişdi. Layihə-viktorina üçün stollar ayrılmış, qonaqlar üçün ayrıca stullar düzülmüşdü. Bayram tədbirində dörd qrup — "Bayraqdar", "Gerb", "Ulduz" və "Aypara" qrupları yarışırdı.

Ən əvvəl 9 noyabr Bayraq Gününə həsr olunmuş videoçarx nümayiş etdirildi. Sonra Heydər Əliyev Mərkəzinin direktoru Ruhəngiz Nəcəfova giriş sözü ilə çıxış edərək tədbir iştirakçılarını əlamətdar bayram münasibətilə təbrik etdi.



Qeyd etdi ki, belə tədbirlər, açıq dərs tipli mərasimlər Mərkəzdə artıq ənənə halını almışdır. Heydər Əliyev Mərkəzi artıq rayonda geniş maarifçilik ənənələri həyata keçirən bir məkana çevrilmişdir.

Sonra sözügedən tədbirin müəllifləri — "Muğan" liseyinin müəllimləri Günel Məmmədova və Dinarə Sərdarzadə çıxış edərək qeyd etdilər ki, bir bayrağın zirvələrdə dalğalanması bir xalqın, bir millətin, bir dövlətin var olması deməkdir.

Daha sonra videoçarxda Bayraq Gününə həsr olunmuş suallar nümayiş olundu. Gözəl musiqi sədaları altında qrup rəhbərləri özlərini və komanda üzvlərini təqdim etdilər. Suallar olduqca maraqlı və intellektual idi. Əvvəlcə "Bayraqdar", sonra "Gerb", "Aypara" və "Ulduz" qrupunun üzvləri suallara cavab verdilər. Onlar həm də sualların ruhuna uyğun şeir nümunələri səsləndirir, eyni zamanda dəqiq elmi cavablar verirdilər. Uşaqların uğurlu cavabları tədbir iştirakçıları tərəfindən hər dəfə səmimi alqışlarla qarşılanırdı.

Daha sonra şagirdlərin 9 noyabr Bayraq Gününə həsr olunmuş əl işləri elə onların özləri tərəfindən hamıya təqdim olundu. Balıqqulağı, makaron, düyü və mirvarilərdən hazırlanmış al-əlvan dövlət atributlarımız doğrudan da hamını heyrətə gətirdi, alqışlandı.

Açıq dərsin "Hərbi and" bölümü xüsusilə yaddaqalan oldu: hərbi forma geymiş şagirdlər milli bayrağımızı hərbi marşların müşayiəti ilə salona gətirdilər və Vətənə xidmət haqqında məktəbli andı içdilər.



Növbəti mərhələdə tədbirin maarifləndirici əhəmiyyəti xüsusilə diqqətəlayiq oldu: "Biz bu gün nələri öyrəndik?" Şagirdlər bu suala birmənalı cavab verdilər: "Milli Bayrağımızın ilk ideya müəllifi dahi həmyerlimiz Əli bəy Hüseynzadədir."

Qaliblərə Heydər Əliyev Mərkəzinin diplomları, müəllimlərə isə zaman ölçüsü — saat mükafat verildi. Tədbirin son dəqiqələri xüsusilə unudulmaz oldu. Ay-ulduz taclı, milli bayraq geyimli balaca rəqqasə Şahnaz Əsgərzadə "Azərbaycan" mahnısının sədaları altında rəqs edərək hamını heyran qoydu. Sonda gözəl gündən yadigar olaraq xatirə şəkilləri çəkildi.

**Zabil PƏRVİZ**

# MƏMMƏD ASLANIN ŞEİRLƏRİNDƏ ƏDƏBİ QAYNAQLAR

Mənəvi dünyamızda, şüur və təfəkkürümüzdə Məmməd Aslan şeiri özünün yüksək dəyərləri ilə dərin izlər buraxmış, ictimai mühitimizdə nəhəng bir simaya çevrilmişdir. Qədim-qayım, əzəli və əbədi poeziyamızın ənənələri üzərində köklənən, öz rişəsi ilə yeni və möhkəm bağlar yaradan, qollu-budaqlı, şaxəli, həm də müdrik, zirvəsi ucalara yetişən qocaman bir palıd ağacına bənzəyir Xalq şairi Məmməd Aslanın sənət dünyası.

O, həyatını ədəbiyyata həsr edən, ömrünü uca və böyük sözün yolunda məşələ döndərən bir şair kimi tanınmış, özünəməxsus daxili yaradıcılıq potensialı ilə mədəniyyət tariximizdə mövqe tutmuşdur. Hələ vaxtilə şeirlərinin birində Məmməd Aslan deyirdi:

**Dünyanı yaşadan hikmətə bir bax:**
**Heçlikdən dirçəlir hər yaşıl yarpaq.**
**Bu gündən sabaha bu ana torpaq**
**Ömrümü ömrünə həmişə bağlar.**

Məmməd Aslan poeziyası, doğrudan da, torpaq ömrü qədər əbədi, torpağın özü qədər müqəddəsdir.

Şairin şeirlərini oxuyarkən burada olan poetik əzəməti canlandırmaq üçün bəzən söz tapmaq olmur. Hansı fikir və mülahizələrdən istifadə edəsən ki, şairin sənət mülkünə doğru yüksələn bütün yolların üzünə qapı aça biləsən. Elə bu yerdə düşüncələrimdə dolaşan belə bir sual ilk andaca ruhuma hakim kəsildi: görəsən, Məmməd Aslan poeziyasını bu qədər ucaldan hansı qüdrət, hansı gücdür? Və dərin düşüncələrin ağır, ləngərli axarında belə bir suala cavab ola biləcək dolu, həm də parlaq bir təzahür bütün əlvanlığı ilə özünü təsdiqləmiş oldu. O, həyat eşqi ilə yaşayan sənət fədaisidir.

Xalqımızın milli kimliyini və varlığını yaşadan gerçəklik Məmməd Aslan poeziyasının əsasında dayanan ən tutarlı və ən möhkəm dayaqdır. Bu, qədim folklorumuzdur. Saz ruhu, dastan nəfəsi, ürfan müdrikliyi şairin əsərlərində mühüm ədəbi qaynaqlardandır. Demək mümkündür ki, onun əksər lirik şeirlərindən bayatı ətri, əsatir, dastan sədası sezilir. Təsadüfi deyil ki, qoşma, gəraylı, eləcə də digər aşıq poeziyası şəkillərində yazılan, milli folklorumuzun örnəkləri üzərində qərarlaşan bu şeirlərdə bədii cazibə qüvvəsi öz təsirini göstərməkdədir:

**Məmmədəm, Şirinim, Əslim ol, könül,**
**Mən deyib kiridim, sən sim ol, könül,**
**Əmri-ilahidir: təslim ol, könül,**
**Gözünü bulud tək sıxmaqdan keçib...**

Məmməd Aslanın lirik şeirlərində qədim türkçülüyümüzlə bağlı bir çox ədəbi priyom və poetik faktlar da başlıca rol oynayır. Böyük tarixi keçmişə malik olan türk yaddaşı, türk fəlsəfi təfəkkür tərzi onun poeziyasının məziyyətlərindəndir. Məmməd Aslanın şeirləri sanki türk ruhu ilə yoğrulub. Belə nəticə çıxarmaq olar ki, müəllifin lirikasında türk milli düşüncəsi ədəbi qaynaqlardan biri kimi formalaşmış, yaradıcılığının əsas qayəsinə çevrilmişdir. Biz fikirlərimizi müxtəlif bədii parçalarda təcəssüm etdirə bilərik:

**Burası Bursa!**
**Nəbzimlə vursa!**
**Haqqa çataram**
**Haqq mənə yarsa!**
*("Qazilər yurdu")*

**Möcüzələr seyridir!**
**Onu dünya seyr edir.**
**Şair Sultan Əhmədin**
**Əbədiyyət şeiridir**
**Sultan Əhməd Camesi!**
*("Sultan Əhməd Camesi")*

Bu baxımdan onun "Anadolu dəftəri" adlı şeirlər silsiləsindən nümunə gətirdiyimiz parçalarda deyilənlər real həllini tapmaqdadır. Bura daxil edilən "Hazan gözəlləməsi", "Dərdin beləsi", "Harput həsrəti" və digər şeirlərdə də türkə məhəbbət, sevgi duyğusu, türk tarixinə və mədəniyyətinə hörmət hissi, türk adına, şərəf və ləyaqətinə ehtiram aydın duyulur. Bütün bunlar o qənaəti yaradır ki, şair Məmməd Aslan öz daxili mənəvi dünyası ilə türkçüdür. Onun əsərlərində türk əqidəsi, türk nəcibliyi və türk mərdanəliyi qürurla əks olunur.



Məmməd Aslanın lirikasında klassik Azərbaycan ədəbiyyatından gələn ab-hava, təravət və gözəllik cəzbediciliyi daha da artırır, sənətkar qüdrətinin sərvəti olan şeirlər bu günümüzlə keçmişimiz arasında ədəbi əlaqə yaradır. Bu ünsiyyətdən doğan bənzərsiz və lətif şeirlərdə Nizami müdrikliyi, Füzuli sehri, Vaqif nikbinliyi bədii çalarlarla əks olunur.

Məmməd Aslan böyük şairdir, həm də ona görə ki, o, ədəbi ənənələr içərisində bədii novatorluq yaratmaq məharətini ən kamil şəkildə sübuta yetirib:

**Tüldən zərif, güldən incə!**
**Tellər oynar yel dəyincə!**
**Gözlər çeşmə, dodaq qönçə,**
**Bir mələkdi üzü, bəh-bəh!**

Yuxarıda verilən şeir bəndinə diqqət yetirək. Şeir nümunəsi xalq yaradıcılığı üslubunda, gəraylı janrında qələmə alınmışdır. Burada əksini tapan bədii-estetik gözəllik milli folklorla çox bağlıdır. Şeirdə fikrin oxucuya dəqiq, həm də obrazlı şəkildə çatdırılması, məcazlardan istifadə məharəti, məzmun və formanın bədii vəhdəti, ahəngdarlıq, dil şirinliyi, axıcılıq və sair kimi keyfiyyətlər şairin öz fərdi üslubu və sənətkarlığı ilə əlaqədardır. Şeirin bədii təsir gücü də bundadır. Məmməd Aslan qələminə məxsus olan orijinallıq göz önündədir. Lakin bununla belə, həm xalq, həm də klassik ədəbiyyatdan gələn, xüsusən də Molla Pənah Vaqifi xatırladan poetik çalarlıqdan da yan keçmək olmur. Bu ona dəlalət edir ki, şair çoxəsrlik tarixi keçmişə malik olan milli ədəbiyyatımıza bütün incəliklərinə qədər bələddir və məhz ədəbi ənənələrə bağlılıq ruhu bu bədii parçada da özünü doğrulda bilir.

"Qərənfil" adlı şeirdə isə şair XIX əsrin görkəmli nümayəndəsi, şairə qadın — xan qızı Natəvanı yad edir. Şeirin epiqrafında isə Natəvanın eyni adlı qəzəlindən bir misra — "Səni kimdir sevən bica, qərənfil?!" verilir. Xurşud Banu Natəvanın "Qərənfil" rədifli şeiri əruz vəzninin qəzəl janrında qələmə alınsa da, şair Məmməd Aslanın eyni rədifli şeiri hecanın qoşma janrında yazılmışdır. Bu əsər təkcə nəzirə xarakteri daşımır, həm də söz ustadı Natəvana sevgi, hörmət və ehtiram hissini özündə əxz etdirir. Haqqında söhbət gedən şeir nümunəsində klassik ovqat, əzəmət və möhtəşəmlik poetikanın cəzbedici dili ilə bədii-estetik gözəlliyi daha da artırır, şeirin orijinallığını qoruyub saxlayır. Qəzələ məxsus olan misranın heca vəzninin tələbləri çərçivəsində yüksək həssaslıq və dəqiqliklə işlənməsi sənətkardan böyük məharət, bacarıq və ustalıq istəyir. Məhz Məmməd Aslan kimi söz sərrafları belə bir poetik uğuru qazana bilərdi:

**Xan qızı bəyənib boy-büsatını,**
**"Kimdir səni sevən bica, qərənfil?!"**
**Aradım göylərin yeddi qatını,**
**Səni necə sevdim, necə, qərənfil!**

Şair qələmindəki bu qüdrət oxucunu ovsunlayır, şeirdəki təravət insan qəlbindəki hisslərə hopur, onun daxili dünyasına gün kimi işıq saçır.

Başqa bir yerdə — "Kərbəla müsibəti" şeirində isə dahi Füzuli bir anlığa gözlərimizin qarşısında canlanır. Şair böyük şeirin böyük ustadına ulu babam deyərək onun ucalığından danışır:

**Beş yüz ildə doğulmadı**
**səndən yüksək ötən söz!**
**Vətən-tale, Vətən-arzu,**
**Vətən-layla, Vətən-söz!**

Şeirin bütöv axarında Füzuli ruhuna və ecazkarlığına ehtiram bildirilməklə yanaşı, həmçinin dahi şairin sənətinə olan heyrət hissi gözəl ovqat, əhvali-ruhiyyə yaradır. "Pəmbeyi-daği-cünun içrə nihandır bədənim" misrası ilə başlayan qəzəlində Füzuli mətxə beytdə "Vətən" sözünü dörd dəfə işlətməklə şeirdə xüsusi məna və mahiyyət kəsb edən bənzərsiz, təkrarolunmaz gözəllik, həmişə cəlb olunan cəzbedicilik yaratmışdır:

**Edəməm tərk, Füzuli, səri-kuyin yarın,**
**Vətənimdir, Vətənimdir,**
**Vətənimdir, Vətənim.**

Məmməd Aslanın da yuxarıda göstərdiyimiz şeirində Vətən sözü dörd dəfə təkrarlanmaqla bədii təkririn ən yaxşı nümunələrindən biri kimi diqqət çəkir. Burada Vətənin tale, arzu, layla və söz kimi mənalandırılması şeirdəki əlvanlığı daha çox artırır, şeirə yeni bir rəng qatır.

Məmməd Aslan lirik şairdir. Onun lirikası müasir ədəbi prosesdə özünə məxsus olan fundamentallığı hələ bundan sonra da qoruyub saxlamaq iqtidarındadır. Məmməd Aslanın əsərlərini mütaliə edəndə adamda belə bir fikir yaranır ki, o həm də Dirili Qurbaninin, Xəstə Qasımın, Aşıq Ələsgərin müasiridir. Məmməd Aslan qocaman şairlərimizdəndir. Deyə bilərik ki, çağdaş dövrümüzün özündə belə onu klassik şair hesab etmək olar. Xalq şairi Məmməd Aslanın şeirləri təfsilat və təfərrüatdan, mücərrədlik və pafosdan uzaq olan bədii nümunələrdir. Buradakı sadəlik, səmimiyyət və aydınlıq şeirlərin poetik gücünü yüksəltməklə yanaşı, eyni zamanda ona canlılıq gətirir.

Poeziya böyük fəlsəfədir. Bu fəlsəfənin mahiyyətini açmaq, onu işıqlandıraraq beyinlərə, ürəklərə hopdurmaq şairdən böyük də cəsarət, tükənməyən iradə, daxili güc, enerji tələb edir. Şairin yaradıcılıq mənbəyi, onun sənət meyarı bu fikri təsdiqləyir ki, yalnız istedadla deyil, həm də ağır zəhmət, işıqlı inam və yüksək amallarla yaşayanlar bəşəri ideallarin zirvəsində qərar tuta bilərlər. Məmməd Aslanı xalqa sevdirən də onda olan belə ali keyfiyyətlərdir. O bu gün də tez-tez və çox oxunan sənətkarlardandır. Şair insanı sevir, ona yüksək münasibət bəsləyir. Sevmək və sevilmək, yaşamaq və yaşatmaq onun aşıladığı ən ülvi hisslərdəndir. Şairə görə dünyanı da, həyatı da, insanı da bir şey yaşada bilər. Bu isə dünya, həyat və insan yarandığı gündən indiyə kimi — hər zaman müqəddəs sayılan sevgi duyğularıdır.



**Zaur ƏRMUĞAN,**
**şair-publisist**

# KİTABXANADA YUBİLEY GECƏSİ

*Bizim sənət dünyasının*
*Qırıq telli sazıyam.*
*Bircə ondan razıyam ki,*
*Özümdən narazıyam.*
*B.Vahabzadə*

**Azərbaycanın xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas, ictimai xadim, SSRI-nin və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illiyi bu ilin avqust ayında tamam olmuşdur. 14 yanvar 2015-ci il tarixlində isə ölkə Prezidenti İlham Əliyev Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamış, bununla bağlı Mədəniyyət və Turizm Nazirliyinə Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla tədbirlər hazırlayıb həyata keçirməyi tapşırmışdır.**

**Respublikamızın hər yerində olduğu kimi rayonumuzun mədəniyyət və təhsil ocaqlarında da görkəmli şairin yubileyi ilə bağlı yaddaqalan tədbirlər hazırlanıb həyata keçirilmişdir. Bu cəhətdən rayon mərkəzləşdirilmiş kitabxana sistemi xüsusilə fərqlənmişdir.**



Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarından biri olan Bəxtiyar Vahabzadənin insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil etmişdir. Elə buna görə də müasir Azərbaycan, eləcə də çağdaş türk ədəbiyyatının görkəmli ustadlarından söhbət düşəndə ilk növbədə xalqımızın sevilən şairi, poeziyamızın parlayan günəşi, sənətkar və zaman anlayışını özündə birləşdirən böyük sənətkar Bəxtiyar Vahabzadə xatırlanır. Dahi Nizaminin inci tək yaddaşlarda sıralanan söz xəzinəsinə köklənmiş, böyük Füzulinin fikir dəryasından qaynaqlanmış, Nəsiminin ölməz ruhundan güc almış, Vaqif şeirinin sadəliyindən, Səməd Vurğunun şirin lirikasından bəhrələnmiş B.Vahabzadə öz poetikası ilə sevən könüllərdə əbədi taxt qurmuş nadir söz ustalarındandır. Dərin fəlsəfi fikirləri ilə "İnsan və zaman" anlayışını açmağa çalışan şair daim "Vətən ocağının istisi" ilə "Dərin qatlara işıq salan" fikirlərində "Açılan səhərlərə salam" dedi, "Körpü çaydan uzaq düşüb" deyə "Fəryad" qopardı, Vətənin çətin, ağır sınağında "Gəlin açıq danışaq" şüarı ilə millətinə səsləndi, əsl "Vətəndaş", mübariz şair kimi onun dərdi ilə ağladı, sevinci ilə "Zirvələrə doğru" yüksəldi, beləcə, daim xalqının yanında oldu, "Sadəlikdə böyüklük" timsalı ilə sözün əsl mənasında Xalq şairi kimi bütün Azərbaycanın, ədəbiyyatsevərlərin böyük sevgisini qazandı. Onun çağlayan, gözəl, sevgi dolu hisslər bəxş edən poeziyası bəzən **"Sən mənim qəribə qismətim, payım, Gecələr günəsim, Gündüzlər ayım, Quzeydə güneyim, Qışda yazımsan, Sən mənim həmişə Əl çatmazımsan!"** deyə qəlblərə hakim olur, bəzən **"Yalanlar həqiqət qiyafəsində, Yeklər cövlan edir şeş xanəsində. Oğrular, əyrilər zəmanəsində Əyrilik sayılır fərasət, Allah"** deyə üsyan edir, bəzən də öz narahat şair dünyası ilə **"Darıxıram, aya günə sığışmıram. Darıxıram, dünyamızın qaydasına, ölçüsünə sığışmıram. Darıxıram istəyimə çatmaq üçün. İstəyimiz fövqündədir qəlbimizin"** deyərək, zamanın fövqünə qalxır. Bir şey danılmazdır ki, xalqımızın hər bir nümayəndəsinin qəlbində Bəxtiyar sevgisi var, onun şeirlərini hər kəsin yaddaşına hopmuş şirin xatirələrdə, gənclik düyğularında, dərinliklərdən hayqıran ürək pıçıltılarında eşitmək olar.

Rayon mərkəzləşdirilmiş kitabxana sistemi və onun yerlərdəki filialları görkəmli şairin 90 illik yubileyi ilə bağlı bir-birindən maraqlı tədbirlər hazırlayaraq həyata keçirib. Bu tədbirlər sırasında oktyabrın 22-də mərkəzi kitabxanada keçirilən "Yaradıbdır inam məni, mən inamın övladıyam" adlı ədəbi-bədii gecə daha yadda qalan oldu.

MKS-nin direktoru Elmira Kazımova tədbiri giriş sözü ilə açaraq qonaqları salamladı, Bəxtiyarsevərləri təbrik etdi, şairin "İnsan qəribədir" şeirindən bir parça söylədi, onun poeziyasının böyük bir abidə olduğunu bildirdi. Aparıcılar Z.Axundova və R.Xankişiyeva məclis boyu böyük şair, publisist, dramaturq B.Vahabzadənin həyat və yaradıcılığı haqqında geniş məlumat verdilər, müxtəlif məzmunlu şeirlərindən parçalar söylədilər.

Yubiley gecəsində rayonun tanınmış ziyalıları T.Əsədov, Ə.Bəşirli, N.Axundzadə və başqaları görkəmli şairin yaradıcılığından, söz qüdrətindən danışdılar, onun xalq mənafeyinin əsl müdafiəçisi, həqiqi vətənpərvər və ictimai xadim olduğunu vurğuladılar. Uzun illər rayonun təhsil sisteminə rəhbərlik etmiş respublikanın Əməkdar müəllimi Tədbir Mahmudov universitet illərindən, o zaman onlara dərs demiş Bəxtiyar Vahabzadənin insani keyfiyyətlərindən danışdı. Qiraət ustası Fərman Hüseynov isə tələbəlik illərində böyük şairlə təsadüfi tanışlığından, onunla bölüşdüyü səmimi duyğularından, dövlət tədbirlərinin birində o zaman üzərində qadağa qoyulmuş "Gülüstan" poemasından bir parçanı əzbər söyləməsindən söhbət açdı, şirin, məlahətli səsi ilə şairin lirik bir şeirini söylədi.

Gecədə deyilən gözəl sözlər, xoş fikirlər, nümayiş olunan videoçarxlar, müğənnilər S.Ruqiyevin, R.Mehdiyevin ifasında şairin sözlərinə bəstələnmiş yatımlı musiqilər bir-birini əvəz etdikcə iştirakçılar şairin əlvan söz dünyasının işığında Bəxtiyar gününü Bəxtiyar sevgisi ilə yaşadılar. Z.Axundovanın söylədiyi hər kəsin dilinin əzbəri olan "Bir salama dəymədi" və Ə.Hüseynovun söylədiyi "Səadət nədir" şeiri məclisin şirinliyini daha da artırdı. Tədbirdə şəhər 4 saylı tam orta məktəbinin şagirdləri S.Əhmədovanın, F.Mehdiyevanın, F.Abdullayevanın ifasında B.Vahabzadənin ana, Vətən, dövlət müstəqilliyimizlə bağlı şeirləri də məclisin axarına xüsusi abı-hava qatdı.



Şairin "Azərbaycan" mahnısı ilə yekunlaşan ədəbi-bədii gecənin sonunda rayon mədəniyyət və turizm şöbəsi müdirinin əvəzi R.Əzizov iştirakçılara, Bəxtiyar dünyasının vurğunu olan oxuculara təşəkkürünü bildirdi, bu böyük sənətkarın təkcə bu günün yox, sabahın və bütün dövrlərin şairi olduğunu söylədi.

Sonda tədbirdə fəal iştiraklarına görə şəhər 4 saylı tam orta məktəbinin şagirdlərinə Fəxri fərmanlar təqdim olundu, çoxlu xatirə şəkilləri çəkildi.

**Nəzakət Məmmədova,**
**rayon mərkəzləşdirilmiş kitabxana sisteminin baş biblioqrafı**

## Unudulmaz müəllimlərimiz

# BABAXAN ZAHİDOV

Kərbəlayi Babaxan Kərbəlayi Balaqardaş oğlu Zahidov Neftçala rayonunda xalq təhsilinin bünövrəsini qoyanlardan, rayonun ilk ali təhsilli coğrafiya müəllimlərindən biri idi. Yaşasaydı indi 90 yaşını qeyd edəcəkdi. Ancaq 90-nını başa vura bilmədi, iki il əvvəl dünyasını dəyişdi. Biz gərək belə dəyərli təhsil işçilərimizi heç vaxt yaddan çıxarmayaq, onları tez-tez xatırlayaq, yada salaq, gələcək nəsillərə də çatdıraq. Anadan olmasının 90 illiyi ərəfəsində istəyirəm Babaxan müəllimin barəsindəki xatirələrimi, düşüncələrimi "Gündoğar" qəzetinin oxucuları ilə bölüşəm. O mənim orta məktəb müəllimim olmuşdu. Özü də ən istəkli müəllimlərimdən biri...

1951-ci ildə mən Astanlı kənd yeddiillik (indiki Astanlı kənd tam orta) məktəbində oxuyurdum. Həmin il Babaxan müəllim də bu məktəbə gələrək coğrafiya fənnindən dərs deməyə başladı. Onun hər gün gülər üzlə sinfə girməsi, bizi gözdən keçirməsi, partalar arasında aramla gəzişməsi, adi sözlərlə, ifadələrlə, həyati misallarla coğrafiya kimi geniş, əhatəli, mürəkkəb bir fənnin mövzularını məharətlə izah edib aydınlaşdırması, bu fənni hər bir şagirdə ürəkdən sevdirməyi bacarması indiki kimi yadımdadır. Babaxan müəllimin olduqca səlis, aydın bir nitqi var idi, dedikləri elə bil hər bir şagirdin beyninə, hafizəsinə nüfuz edirdi, ora möhkəm-möhkəm həkk olunurdu. Bu isə hər bir müəllim üçün çox mühüm bir cəhət, olduqca vacib bir şərtdir.

Babaxan müəllim həmişə deyərdi ki, xəritə coğrafiya fənninin əlifbasıdır, buna görə hər bir şagird xəritəni əzbərdən bilməlidir. Bunu deyib əlindəki uzun çubuqla divardan asılmış xəritədə dünya ölkələrini bir-bir bizə göstərər, onların əraziləri, əhaliləri, paytaxtları, iqtisadiyyatları barədə ətraflı məlumat verər, bütün bunları yaxşı-yaxşı yadda saxlamağımızı tapşırardı. Bizə dərs dediyi dövrdə mən Babaxan müəllimin nə vaxtsa əsəbiləşdiyini, bərkdən, uca səslə danışdığını görməmişdim. O həmişə səliqəli geyinər, yaraşıqlı qalstuk taxar, başına o vaxtlar dəbdə olan və özünə çox yaraşan panama qoyardı. Babaxan müəllim çox dərin, hərtərəfli, ensiklopedik biliyə malik olan bir şəxsiyyət idi. Həm də mehriban və qayğıkeş idi. O, şagirdləri, şagirdlər də onu çox sevərdi...

Onda müharibədən cəmi 6 il keçirdi, insanların vəziyyəti olduqca ağır idi. İmkansızlıq üzündən çox şagird dərsə gələ bilmir, gələndə də pis geyinir, ayaqyalın gəlirdi. Dəfələrlə görmüşdüm Babaxan müəllim vəziyyəti ağır olan şagirdlərə halal zəhməti ilə qazandığı pulla pal-paltar, ayaqqabı alır, onlara müxtəlif maddi yardımlar edir. O bəzən tənəffüs vaxtı özləri ilə evdən çörək gətirə bilməyən uşaqlara çörək də verirdi. Bu da Babaxan müəllimin nəcibliyindən, xeyirxahlığından, alicənablığından irəli gəlirdi. Bütün bunlara görə şagirdlər də, valideynlər də Babaxan müəllimin xətrini çox istəyirdilər, o, kənddə olduqca böyük hörmətə və nüfuza malik idi.

Çox keçmədən Babaxan müəllimi biliyinə, savadına, bacarığına, qabiliyyətinə görə irəli çəkdilər, Xolqarabucaq kənd orta məktəbinə direktor göndərdilər. Məktəbimizdən ayrılıb getsə də mən ondan əl çəkmirdim, həmişə onunla əlaqə saxlayırdım, axtarıb tapırdım, onunla təmas qurmağa çalışırdım. Bu da təsadüfi deyildi. Babaxan Zahidov az vaxtda diqqət çəkən, şagirdin qəlbində özünə isti bir yuva qurmağı bacaran bir müəllim idi. Onda mənim diqqətimi cəlb edən çox cəhətlər, çox xüsusiyyətlər var idi. Mənim bir müəllim, bir yaradıcı ziyalı kimi yetişməyimdə, formalaşmağımda vaxtilə Xıllı qəsəbə orta məktəbində mənə dərs demiş istəkli müəllimlərim Əbdüləhməd Sultanov, İsmayıl İbrahimov, İsa Əsədov, Rasim Həsənov, Əsəd Əsədovla yanaşı Babaxan müəllimin də böyük rolu, xidməti, təsiri olmuşdu.

Babaxan müəllimin əmisi məşədi Ağabala Yuxarı Qaramanlıda yaşayan dayısı çovuş kərbəlayi Əmiralının qızı Qıztamam xanımla həyat qurubmuş və ondan dörd oğlu, bir qızı dünyaya gəlibmiş. Atası kərbəlayi Balaqardaşın isə birinci həyat yoldaşı Dürnisədən sağlam övladlar dünyaya gəlmirmiş. Onun təkcə bir qızı varmış. Məşədi Ağabala dünyasını dəyişdikdən sonra kərbəlayi Balaqardaş onun həyat yoldaşı, özünün dayısı qızı Qıztamamın başsız qalmaması, ailədən ayrı düşməməsi üçün onunla da ailə qurur və bu izdivacdan 1922-ci ildə Nisəxanım adlı bir qızı, 1925-ci ildə isə Babaxan dünyaya gəlir...

Babaxan müəllim uşaqlıqdan elmə həvəsli olub, məktəbə həvəslə qədəm qoyub. O ilk dəfə 1932-ci ildə yaşadıqları Babaxanlı kəndindən beş-altı kilometr məsafədə yerləşən Qaraəhmədli kəndindəki məktəbin 1-ci sinfində oxumağa başlayıb. İndiki uşaqları məcbur etsən də bu qədər uzaq məsafədə yerləşən məktəbin yolunu piyada gedə bilməzlər. Amma Babaxan yoldaşları ilə birlikdə bu uzaq məsafəni deyə-gülə qət edir, hər gün məktəbə necə gedib gəldiyini hiss etmir...

Amma onunku gətirmir. 1-ci sinfə qədəm qoymasından 2 ay keçməmiş atası Kərbəlayi Balaqardaşın var-dövlətini əlindən alır, əmlakını müsadirə edir, evlərini və anbarlarını söküb aparırlar. Onlar yurd-yuvasız, ev-eşiksiz qalırlar. Kərbəlayi Balaqardaş məcbur olub Xolqaraqaşlıya köçür, Babaxanı da anasından ayıraraq özü ilə ora aparır. Qıztamam isə əvvəlki həyat yoldaşından olan uşaqları ilə birlikdə Babaxanlıda qalır... Çox keçmədən kərbəlayi Balaqardaşı tutub həbs edirlər. Yaxın bir qohumu gəlib onun ailəsini Yuxarı Qaramanlı kəndinə aparır. Babaxan isə Babaxanlıya, anasının və anabir qardaşlarının yanına qayıdır. Bu vaxt artıq Babaxanlının özündə də ibtidai məktəb açılır və Babaxan orada təhsilini davam etdirməyə başlayır...



İş bununla da bitmir. Kərbəlayi Balaqardaş həbsdən azad olunduqdan sonra da çox əziyyətlər çəkir, çox təqiblərə məruz qalır, ələ keçməmək üçün qaçaq düşür. Babaxan da uzaq məsafələr qət edərək gah Yuxarı Qaramanlıda, gah Babaxanlıda, gah Qaraəhmədlidə oxuyur, amma dərsindən, təhsilindən ayrı düşmür...

Babaxan Zahidovun əvvəldən müəllimliyə həvəsi olub. Bu həvəslə də o, 1940-cı ildə yaşadığı Babaxanlı kəndindən 6 kilometr məsafədə yerləşən Qaraəhmədli kənd yeddiillik məktəbini bitirən kimi 12 nəfər şagird yoldaşı ilə birlikdə Salyan pedaqoji texnikumuna qəbul olunmaq üçün gedir. Həmin şagirdlərdən təkcə Babaxan o texnikuma qəbul olunur. Buna çox sevinir. Amma sevindiyi qədər də əziyyətə düşür. Yol-irizin olmadığı, nəqliyyatın çatışmadığı bir vaxtda hər gün tozlu-torpaqlı, palçıqlı yollarla bəlkə də 40-50 kilometr məsafədə yerləşən həmin məktəbə gedib-gəlmək Babaxan üçün əzaba çevrilir. Amma həvəs, maraq olan yerdə adam hər şeyin çəmini tapır, hər əziyyətə qatlaşır. Babaxan da bu işin çəmini tapır. Hər həftə oxuduğu məktəbə yaxın ərazilərdə yaşayan qohumlarından birinin evinə qonaq gedir, amma dərsindən kənarda qalmır. Həftədə, iki həftədə bir dəfə də piyada, qarşısınıa çıxan hansısa bir nəqliyyatla bu uzaq yolu qət edərək evə gedir, yükünü tutaraq yenə geri qayıdır. Elmə, biliyə həvəsi, marağı çox olduğu üçün dərslərini yaxşı oxuyur, imtahanlardan uğurla çıxır...

Ancaq onun bu sevincli günlərinin də ömrü uzun çəkmir. Tezliklə müharibə başlayır, hər şey bir-birinə qarışır. Onların oxuduğu məktəbi bağlayırlar, binasını yaralanıb arxaya göndərilən əsgərlərin müalicə olunduğu hərbi qospitala çevirirlər. Beləliklə də, Babaxanın müəllim olmaq arzusu gözündə qalır. Bundan sonra o, Salyanda açılan kənd təsərrüfatı mütəxəssisləri hazırlayan kursa yazılır, bu kursu bitirib baytar feldşeri olur, daha sonra isə hərbi xidmətə çağırılır...

1944-cü ilin axırlarına yaxın Babaxanı əsgər aparırlar. Ancaq sovet qoşunları artıq dövlət sərhədini keçdiyinə görə onları ön cəbhəyə yox, arxa cəbhəyə göndərirlər. Babaxan elə Azərbaycanda xidmət edir, göndərişlə Babazanlı və Xıllı neft kəşfiyyatı idarələrində işləməyə başlayır. Ancaq bütün bu illər ərzində müəllim olmaq arzusu onun bir an da yadından çıxmır...

Müharibədən sonra Salyan pedaqoji texnikumu yenidən fəaliyyətə başlayır. Bundan xəbər tutan Babaxan 1947-ci ildə çalışdığı idarənin rəisinin yanına gedir. Deyir ki, mən vaxtilə pedaqoji texnikumda təhsil almışam, indi yenə orada oxumaq, müəllim olmaq istəyirəm. Xahiş edirəm məni ərizəmlə fəhləlikdən azad edəsiniz ki, gedib təhsilimi davam etdirim. Rəis yaxşı adam imiş. Babaxanın təhsil almaq istəyi ilə yaşaması onun xoşuna gəlir. İdarəyə səfərbərliyə alınaraq göndərilməsinə baxmayaraq mühasibi çağırıb göstəriş verir ki, onun ərizəsini alıb sənədlərini qaydaya salsın, Babaxanı fəhləlikdən azad etsin. Beləliklə də o, çoxdankı arzusuna qovuşur. Neft kəşfiyyatı idarəsindəki işindən çıxır, imtahanlarını verərək Salyan pedaqoji texnikumuna qəbul olunur, oranı bitirib müəllim adını alır...

Yuxarıda qeyd edildiyi kimi Babaxan Zahidov Neftçala rayonunun ilk ali təhsilli coğrafiya müəllimlərindən biri olmuşdu. Bu isə o vaxtlar üçün heç də asan bir iş deyildi. O dövrdə ali təhsilli müəllimləri barmaqla saymaq olurdu. Kadr çatmadığı üçün bəzən orta məktəbi təzə bitirən əlaçı şagirdlərin özlərindən də müəllim kimi iştifadə edirdilər. Babaxan məhz belə bir çətin şəraitdə ali pedaqoji təhsili ala bilmişdi...

Müharibədən sonrakı dövrdə Bakıda qiyabi pedaqoji institut açılmışdı, orta ixtisas təhsilli pedaqoji kadrlara da bu institutda oxuyub təhsillərini davam etdirməyə icazə verilmişdi. Babaxan da 1949-cu ildə imtahan verərək həmin institutun coğrafiya fakültəsinə qəbul olunmuş, 1955-ci ildə oranı bitirərək rayonun ilk ali təhsilli coğrafiya müəllimlərindən biri olmuşdu...

Təhsilini başa vurduqdan sonra Babaxan müəllim bir müddət o vaxt Salyan rayonunun tabeçiliyində olan Xolqarabucaq kənd orta məktəbinin direktoru vəzifəsində çalışır, 1958-ci ildə ailəsi ilə birlikdə köçərək Neftçala rayonuna, Sovetabad kəndinə (indiki Həsənabad qəsəbəsinə) gəlir, burada ev-eşik tikir, məskən salır, uzun illər Qoltuq kənd səkkizillik məktəbində (indiki şəhər 2 saylı tam orta məktəbində) dərs deyir. Sonralar isə Babaxan Zahidov yaşayış məskənini dəyişir, Aşağı Surra kəndinə köçür, buradakı orta məktəbdə coğrafiya və tarix fənlərini tədris edir, dünyasını dəyişənə qədər həmin kənddə yaşayır..

Babaxan müəllim olduqca mehriban, şəfqətli, mömin bir kişi, müdrik bir ziyalı idi. O, çox müqəddəs yerləri gəzmiş, mötəbər kərbəlayi, məşədi titullarını qazanmışdı.

Kərbəlayi Babaxan Zahidov həm də qayğıkeş bir ata, gözəl bir ailə başçısı idi. O, ömür-gün yoldaşı Məryəm xanımla birlikdə 6 övlad böyüdüb tərbiyə etmiş, onların hamısına ali təhsil vermişdi. Həyatının və yaradıcılığının çiçəkləndiyi bir vaxtda dünyasını dəyişmiş böyük oğlu hacı Təvəkkül Zahidov respublikanın tanınmış alimlərindən biri, fəlsəfə elmləri namizədi, professor idi, Azərbaycan Memarlıq və İnşaat Universitetində dərs deyirdi. Şəhər 4 saylı tam orta məktəbinin müəllimi Ələkbər Zahidov və Aşağı Surra kənd tam orta məktəbinin müəlliməsi Umleyla Zahidova atalarının yolunu seçiblər, onlar da ataları kimi coğrafiya müəllimidirlər. Üçüncü oğlu Əbülfəz orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olunmuşdu, iqtisadçı olmağa hazırlaşırdı. Həmin institutun 3-cü kursunda oxuyarkən qəfildən xəstələnərək dünyasını dəyişdi. İkinci qızı Şəhla da iqtisadçıdır, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tikinti iqtisadiyyatı fakültəsini bitirib. Hazırda Bakı şəhərində yaşayır. Sonbeşik oğlu Məlik isə Azərbaycan Tibb Universitetini bitirib, Neftçala rayonunun tanınmış tibb işçilərindəndir, rayon mərkəzi xəstəxanasında anistizioloq həkim işləyir. İndi Neftçalada və Bakıda Babaxan müəllimin çoxlu sayda nəvə-nəticələri yaşayır, bu nurlu insanın işıqlı ruhunu yaşadır. Nəvələrinin əksəriyyəti ali təhsilli mütəxəssisdir.

Mənim kimi Babaxan müəllimin digər yetirmələri, onunla eyni məktəbdə dərs demiş müəllim yoldaşları da bu gün Babaxan Zahidovun işıqlı xatirəsini böyük ehtiram hissi ilə yada salır, ruhuna qəni-qəni rəhmətlər diləyirlər. Həyatda imanla yaşayıb savab əməl sahibi olanlar beləcə heç vaxt yaddan çıxmırlar, həmişə ehtiram hissi ilə xatırlanırlar.

**İmamverdi ZEYNALOV,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist**

# GÜNDOĞAR

25 noyabr 2015-ci il - №31-32-33-34 (6584)

SON SƏHİFƏ


# Təşkil olunan təlim kursları hər birimiz üçün faydalı oldu

Bu gün həyatımızın digər sahələri kimi təhsil sistemi, təlim-tərbiyə prosesi də dəyişərək inkişaf edir, yeni üsullarla, metodlarla zənginləşir. Məktəbimizdə də bu üsul və metodlardan, vasitələrdən geniş şəkildə istifadə olunduğundan uğurlarımızın sayı durmadan artır. Son vaxtlar elə il olmayıb ki, ali məktəblərə tələbə qəbulunda, respublika səviyyəli bilik yarışlarında, müsabiqələrdə fərqlənməyək. Ötən dərs ilinin yekunlarına görə təhsil ocağımızın dövlət başçısı cənab İlham Əliyevin sərəncamına əsasən "Ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülməsi və on min manat məbləğində pul mükafatı ilə mükafatlandırılmağımız çəkilən birgə zəhmətin, həyata keçirilən tədbirlərin, ən başlıcası pedaqoji kollektivimizin müasir təlim metodlarından bacarıqla istifadə etməsinin nəticəsidir.



Bu il sentyabrın 1-də Təhsil Nazirliyi, "Təhsildə İnnovativ Texnologiyalar" Əlavə Təhsil Mərkəzinin və Paris Sorbonna Universitetinin Abu Dabi kampusunun birgə əməkdaşlığı ilə Qubada təşkil olunan "Məktəb idarəetməsi" mövzusunda keçirilən təlim kursuna dəvət olunmağımız da bununla əlaqədar idi. İştirakçı məktəb rəhbərlərinin əksəriyyəti, yəni 36 nəfəri Bakı və Sumqayıt şəhərlərindən gəlmişdi. 4 nəfər məktəb direktoru isə Ağdaş, Zaqatala, Yevlax və Neftçala rayonlarını təmsil edirdi ki, onları da təhsildəki uğurlarına görə fərqləndirmişdilər. Digərləri kimi, bu məni də çox sevindirirdi və bu dəvətdən, belə mötəbər tədbirdəki iştirakımdan qürur duyurdum.



Tədbirdə təhsil nazirinin müavini Ceyhun Bayramovun və Fransanın Azərbaycandakı səfiri Paskal Mönyenin iştirak etməsi sevincimizlə yanaşı məsuliyyətimizi də artırırdı.

Səfir Paskal Mönye Azərbaycan və Fransa arasında bütün sahələrdə sıx əməkdaşlıq olduğunu, təhsil sahəsində birgə fəaliyyətin qarşılıqlı faydaya söykəndiyini vurğuladı. Səfirin azərbaycanlı məzunların Fransada təhsil almaları üçün geniş imkanların yaradıldığını bildirməsi gələcək perspektivlərdən xəbər verirdi.

Təhsil nazirinin müavini Ceyhun Bayramovun fikirlərini də böyük maraqla dinlədik. Təlim kurslarında Təhsil Nazirliyinə tabe olan, eyni zamanda, Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən tövsiyə edilmiş məktəb direktorları ilə yanaşı, 2013-2014-cü dərs ilinin buraxılış imtahanlarında yüksək nəticə göstərən Sumqayıt və digər şəhər (rayon) məktəbləri rəhbərlərinin iştirak etdiyini diqqətə çatdıran nazir müavini bildirdi ki, intensiv təlim proqramının əsas məqsədi seçilmiş məktəb direktorları üçün qabaqcıl təlim sistemi və effektiv məktəb idarəetməsi anlayışını tanıtmaq, məktəb rəhbərlərinin liderlik potensialını inkişaf etdirməkdir.

Sentyabrın 9-dək davam edən təlim Paris Sorbonna Universitetindən xüsusi dəvət olunmuş professor Florent Pratlong tərəfindən keçirildi. Əlavə olaraq, kurs çərçivəsində yerli təlimçilər tərəfindən liderlik, məktəb çərçivəsində şagird sağlamlığının qorunması, vaxtın idarə olunması, təqdim bacarıqlarının inkişafı və digər mövzularda interaktiv sessiyaların təşkili bizə çox şey verdi. Aydın oldu ki, məktəbdə innovasiyaların tətbiqi ilk növbədə burada güclü və zəif cəhətləri, imkanları təhlil etməkdən başlayır. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün strateji istiqamətlər dəqiq müəyyənləşdirilməlidir. Peşəkar kadrların mövcud olması təlimin keyfiyyətinin əsasını təşkil edir. Şagird nailiyyətlərinin izlənməsi, onların bacarıq və istedadlarının, qabiliyyətlərinin vaxtında aşkara çıxarılması da əsas məqsədlərdəndir. Bunun üçün şagirdlərin potensialları və maraqları diqqətlə nəzərə alınaraq hər biri düzgün istiqamətləndirilməli, onların fənn olimpiadalarına və digər bilik yarışlarına cəlb edilməsi sahəsində məqsədyönlü iş aparılmalıdır. Yuxarıda sadalanan fəaliyyətlər təşkil olunmaqla yanaşı, məktəbin missiyası, strateji planlaşdırmanın aparılması, inkişaf etdirici innovasiyaların tətbiqi üçün keyfiyyətli təhsil şəraitinin yaradılması da uğurlu nəticələrin əldə olunması üçün əsas şərtləndəndir. Qarşıya qoyulan tələb və məqsədlərə çatmaq üçün bütün sahələrdə səylər birləşdirilməli, qüvvələr səfərbər olunmalıdır.

Təlim kurslarının sonu da bizim üçün yaddaqalan oldu. Sertifikatların təqdimatının Fransa səfirliyində keçirilməsi unudulmaz idi. Sertifikatları bizə təhsil nazirinin müavini Ceyhun Bayramov və Fransanın Azərbaycandakı səfiri Paskal Mönye təqdim etdilər. Həmin anlarda hər birimiz xoş hisslərlə, duyğularla yaşadıq.

Artıq o vaxtdan iki aydan çox keçir. Yeni dərs ilinə yeni arzularla, yeni ümidlərlə başlamışıq. Uğurlarımızı daha da genişləndirmək, müəyyənləşdirdiyimiz strateji məqsədlərə çatmaq başlıca hədəflərimizdir. Təlim kurslarında öyrəndiklərimizin işimizdə, gündəlik fəaliyyətimizdə tətbiqi, yəqin ki, nəticəsiz qalmayacaq, hədəflərə çatmağımızda bizə yardımçı olacaq.

**Şəfəq BALAŞOVA,**
**şəhər 4 saylı tam orta məktəbinin direktoru**

## Sizin sağlamlığınız

# YUXULULUQ XƏSTƏLİKLƏRDƏN XƏBƏR VERİR

**Yuxululuq çox adamda müşahidə olunur və adətən rejimsiz həyat tərzi, yuxudan doymamaq, stress, şəraitin dəyişdirilməsi kimi amillərlə bağlıdır. Lakin onu da nəzərə almaq lazımdır ki, yuxululuqla müşahidə olunan bir sıra xəstəliklər var. Qəfil yaranan və güclü yuxululuq beyində baş verən problemlərə də işarə edir.**

Qeyd edək ki, insan orta hesabla hər gün 7-8 saat yatmalıdır. Lakin statistikaya görə, 20-45 yaş arasında olan insanların çoxu normadan az yatır. Daimi olan yuxusuzluq isə əsəb gərginliyi ilə nəticələnir. Orqanizm tədricən zəifləyir və yuxululuq xroniki hal alır. Həm də araşdırmalar göstərir ki, insanların çoxu gecə gec yatmağa üstünlük verir. Lakin alimlər müəyyən ediblər ki, insanın gündüz neçə saat yatmasından asılı olmayaraq, gecə yatmaq daha faydalıdır və gecə yuxusunun yerini heç nə vermir.

Terapevt Elçin Hüseynovun sözlərinə görə, yuxululuq tam sağlam adamlarda da müşahidə oluna bilər: "Emosional gərginlik, əqli və fiziki işlərdən sonra yorğunluq, işin, yaşayış yerinin, şəraitin dəyişməsi yuxuluğa səbəb ola bilər. Xroniki yorğunluq və orqanizmə uyğun gəlməyən pəhrizlər də yuxululuğa gətirib çıxarır. Bəzi hallarda isə yuxululuq hipersomniya xəstəliyinin əlaməti kimi özünü göstərir" deyən terapevt əlavə edib ki, hipersomniya patoloji yuxululuqdur. Hipersomniya zamanı yuxu vaxtı uzanır.

Sakitləşdirici təsirə malik dərmanların da yuxululuğa səbəb olduğunu deyən həkimin sözlərinə görə, bu cür dərmanları içərkən ehtiyatlı olmaq lazımdır. Bəzi soyuqdəyməyə qarşı olan dərmanlar da yuxululuğa səbəb ola bilər. Çox yuxu gətirən dərmanların əks göstərişlərində bu haqda məlumat qeyd olunur. Ona görə də yaxşı olar ki, maşın sürən və ya ayıq qalmağı vacib olan şəxslər dərman qəbulu zamanı bunu nəzərə alsınlar.

Terapevtin dediyinə görə, əgər yuxululuq hansısa patologiya ilə bağlıdırsa, onun müalicəsi vacibdir. Lakin əksər hallarda



gündüz özünü göstərən yuxululuq insanın gecə pis yatması və yuxudan doymaması ilə əlaqəlidir. Bir qayda olaraq gecə müşahidə olunan yuxusuzluq gün ərzində yuxululuqla əvəz olunur.

Uşaqlarda isə infeksiyalı xəstəliklər zamanı yuxululuq və əzginlik daha çox müşahidə olunur. Uşaqlarda olan yuxululuq təhlükəli xəstəliklərdən də xəbər verə bilər. Əgər uşaqlarda yuxululuq çox kəskin özünü göstərmirsə, lakin xroniki hal alıbsa, ilk növbədə qan xəstəliklərindən, tənəffüs orqanları xəstəliklərindən, ürək-damar sistemi patologiyalarından, əsəb xəstəliklərindən, mədə-bağırsaq xəstəlikllərindən, diabetdən şübhələnmək olar.

Müsahibimiz bildirib ki, əksər hallarda qida qəbulundan sonra müşahidə olunan yuxululuq normal haldır. Amma qida qəbulundan sonra yuxululuqla yanaşı yorğunluq və əsəbilik də özünü göstərirsə, deməli, insan əsəb gərginliyindən əziyyət çəkir. Qida qəbulundan sonra yuxululuq həm də az yatmaq, həddindən çox yeməklə və yorğunluqla bağlı ola bilər. Rejimsiz həyat tərzi də insanda yuxunun pozulmasına gətirib çıxarır. Yuxululuq həm də hamiləlikdən də xəbər verə bilər. Hamiləlik zamanı ilk üç ayda yuxululuq daha çox müşahidə olunur və normal hesab olunur.

Bəzi insanlarda isə yuxululuq ancaq iş yerində özünü göstərir. Bununla əlaqədar olaraq psixoloq diqqətə çatdırıb ki, yuxululuğun qarşısını almaq üçün dərman qəbul etmək də effekt verir. Dərman içmək istəməyənlər isə iş yerində yuxululuğu gətirən amilləri nəzərə almalı və onları aradan qaldırmağa çalışmalıdır. Ola bilsin ki, otaqda hava çatışmadığı üçün insan yatmaq istəyir. Yaxşı olar ki, belə yerlərin havası tez-tez dəyişdirilsin. Havada toksik maddələrin olması da yuxu gətirə bilər. Eyni işlə uzun müddət məşğul olmaq, səslərin və ya məşğuliyyətin monotonluğu da yuxululuğa səbəb olur. Ona görə də yaxşı olar ki, iş zamanı fasilələr edəsiniz.

**Aynurə MƏMMƏDOVA**

# DAUN SİNDROMU NƏDİR?

Daun sindromu 1866-cı ildən elmə məlumdur. İngilis həkimi Lanqdan Daun bu xəstəliyi bir qız uşağında müşahidə edib və onu "monqolizm" adlandırmışdır. Ancaq asiyalı alimlərin xəstəliyin "monqolizm" adlandırılmasına etirazından sonra bu xəstəlik onu kəşf edən alimin şərəfinə "Daun sindromu" adını almışdır.

BMT-nin 10 noyabr 2011-ci il qərarı ilə 21 mart tarixi Dünya Daun Sindromu günü olaraq qəbul edilmişdir. 21 mart günü (21/3) daun sindromlu insanlarda 21-ci xromosomun 3 ədəd olmasını işarələyir. Dünya daun sindromu günü daun sindromlu fərdlərin haqqlarını qorumaq üçün önəmli bir addımdır. Daun sindromu xəstəlik deyil. Bu sindromun əsas səbəbi insanda normal 46 xromosom əvəzinə, 47 xromosomun olmasıdır. Yəni, hər bir hüceyrədə 46, ya da 20 cütlük var. Daun sindromu 21-ci cüt xromosomlarda baş verən anomaliya zamanı trisomiyanın əmələ gəlməsidir. Yəni, xromosom anomaliyasıdır. Bu uşaqlar bir-birlərinə o qədər oxşayırlar ki, heç bir valideynin iki uşağı bir-birlərinə bu qədər oxşamır. Daun sindromlu uşaqların əlamətləri aradan qaldırılmır. İnsan ölənə qədər o əlamətlər qalır. Ona görə də daun xəstəlik yox, sindromdur. Amma daun sindromu ilə doğulan uşaqlar arasında əqli və fiziki cəhətdən inkişaf edənlərə də rast gəlmək mümkündür. Belələrinin sayı az olsa da, var: Məsələn, hamımızın yaxşı tanıdığımız, sevdiyimiz aktyorlardan biri daun sindromu ilə doğulub. Amma əqli problemi olmadığından tanınmış və olduqca sevilən sənətkarlar arasında yer alıb. Xarici ölkələrdə də daun sindromu ilə doğulan məşhur aktyorlar, rəssamlar var və onların əqli qüsuru yoxdur.

Daun sindromunda ən çox qarşılaşılan fiziki özəlliklər bunlardır:

- Əzələlərdə gərginliyin az olması;
-Yastı üz quruluşu, kiçik burun;
- Burun kökünün batıq olması;
- Gözün daxili kənarlarında tipik görünüşlü dəri qıvrılmaları (epikantus);
- Anormal quruluşlu qulaqlar;
- Ovucları ortadan iki yerə bölən tək xətt (Simian xətti);
- Oynaqların normadan çox açıla bilməsi (hiperfileksibilit);
- Əlin kiçik barmağında ortadakı sümüyün olmaması;
- Dilin ağıza nisbətən daha böyük olması.

Müşahidələr göstərir ki, daun sindromlu uşaqlar erkən qurulan nikahlarda və gec övlad sahibi olan ailələrdə daha çoxdur. 20 yaşından gənc anaların belə uşaqları ola bilər. Digər tərəfdən, 35-40 yaşlı hər 400 qadından 1-i daun sindromlu uşaq dünyaya gətirə bilər. 40-45 yaşlı hər 80 qadından 1-nin övladı daun sindromlu doğula bilər. Yəni, yaş artdıqca ehtimallar artır. Azərbaycanda perenatal diaqnostika vasitəsilə uşağın daun sindromlu doğulub-doğulmayacağını müəyyənləşdirmək olar. Səhiyyə Nazirliyinin məlumatına görə, ölkədə 336 nəfər daun sindromlu şəxs var. Onlardan 296 nəfəri 13 yaşa qədər olanlar, 21 nəfəri 14-17, 11 nəfəri 18-29 yaş arasında, 8 nəfəri isə 30 və daha yuxarı yaş qrupunda olanlardır. Daun sindromlu şəxslərdə həyat müddəti 16-20 ildir, bununla yanaşı, 80 yaşına qədər yaşayanlar da vardır.

Daun sindromlu uşaqları daha da sevimli edən xüsusiyyətlər bunlardır:

- Dürüstdürlər;
- Qaydalara riayət edirlər;
- Təbiəti çox sevirlər;
- Şən və sevimlidirlər;
- Çox həssasdırlar;
- Təqlid etmək kimi istedadları vardır;
- Səliqəlidirlər, səliqəsizliyi sevməzlər;
- Eqoist deyillər;
- İncəsənətə xüsusi qabiliyyətləri vardır;
- Qarşılıq gözləmədən sevərlər;
- Yalan deyə bilmirlər;
- İnsanları çox sevirlər;
- Kin saxlamırlar;

Uşaqlarınızın daun sindromlu olduğunu öyrəndikdə onlardan imtina etməyin. Uşaqlarınızı yaxşı tərbiyə edəcəyinizə, onunla hər şeyin yolunda olacağına özünüzü inandırın. Heç vaxt unutmayın: Onlar xəstə deyillər, sadəcə fərqlidirlər. Onların böyüdülməsi, tərbiyə edilməsi qeyri-mümkün deyil. Bəli, bir qədər çətindir, amma mümkünsüz deyildir. Onların da digər uşaqlar kimi sevilməyə, dəyər verilməyə haqları var. Uşaqlarınızı sevin. Onların immunitetləri digər usaqlardakından zəif ola bilər, amma bu o demək deyil ki, onlar tez ölür. Onları həyata gəlməmiş öldürməyin, imtina etməyin! Axı onlar da bizim kimi canlıdırlar, insandırlar və ən əsası onların da yaşamaga haqları vardır. Bir fikirləşin, onların əvəzində siz olsaydınız və valideynləriniz sizdən imtina etsəydilər, siz valideynlərinizdən küsüb inciməzdinizmi?



**Esmira MƏMMƏDZADƏ,**
**Neftçala şəhər internat ümumi orta məktəbinin psixoloqu**

# Mənzillərinizi yanğından qoruyun

Artıq qışın kəskin soyuqları başlayıb. Yaşayış evlərinin isidlməsində elektrik və qaz cihazlarından, eləcə də müxtəlif yanacaqla işləyən sobalardan istifadə olunur. Qış mövsümündə elektrik verilişində bəzi hallarda fasilələr yarandığından mənzilləri işıqlandırmaq məqsədilə şamdan və neft lampasından istifadə olunur. Amma bu zaman adi ehtiyat tədbirləri tamamilə unudulur. Bəzən vətəndaşlar tərəfindən mənzillərdə şamdan istifadə edərkən şam yanmayan altlıqlar üzərində deyil, papiros və ya kibrit qutuları üzərində, stolda və ya pəncərə altı taxta üzərində yapışdırılaraq yandırılır, eləcə də onları nəzarətsiz qoyub gedirlər. Bu zaman şam yıxıla bilər, əgər yanmaqda davam edərsə, yanğın onun altındakı yanar konstruksiyalara keçərək inkişaf edər. Odur ki, mənzllərdə şamdan istifadə edərkən, onları sabit metal şamdana taxmaq lazımdır.

Təhlillər göstərir ki, baş vermiş yanğınların bir hissəsi elektrik avadanlıqlarının quraşdırılması və istismarı qaydalarına düzgün riayət edilməməsi nəticəsində baş verir. Elektrik təsərrüfatında yanğınlar əsasən 3 səbəbdən baş verir: artıq yükləmədən, qısa qapanmadan və yüksək keçirici müqavimətdən. Elektrik dövrəsinin artıq yüklənməsi yanğına səbəb olan əsas amillərdən biridir. Belə i, elektrik xəttindən cərəyan keçərkən həmişə hərarət əmələ gəlir. İşlədiləcək elektrik cihazlarının nominal gücünə uyğun müvafiq en kəsikli elektrik naqilləri seçilməlidir. Əks halda elektrik naqili həddən artıq qızaraq naqilin izolyasiyasının keyfiyyətini tədricən itirir, bu da öz növbəsində elektrik təsərrüfatında qəza yaranmasına və yanğın baş verməsinə səbəb olur. Belə hal bir rozetkaya bir neçə elektrik cihazı qoşulduqda da baş verə bilər.

Elektrik təsərrüfatında baş verən yanğınların səbəblərindən biri də qısa qapanmadır. Qısa qapanma izolyasiya olmayan və ya



izolyasiyası zədələnmiş naqillərin bir-birinə toxunması nəticəsində baş verir. Bu zaman naqillər o qədər qızır ki, metal damarlar əriyərək qığılcım yaradır. Qısa qapanma baş vermiş hissənin yaxınlığında yana bilən konstruksiyalar dərhal alışır. Hər bir vətəndaş bilməlidir ki, qısa qapanma və həddən artıq yüklənmə nəticəsində mənzillərdə baş verəcək yanğınların qarşısını almaq üçün müəyyən yükə hesablanmış əriyən qoruyucu və avtomatik açar quraşdırılmalıdır. Qısa qapanma və ya həddən artıq yüklənmə olduqda qoruyucunun əriyən məftili, naqillər təhlükəli temperatura çatmamış qırılır və təhlükənin qarşısı alınır. Əsasən yaşayış evlərində elektrik xətlərinin çəkilişi zamanı vətəndaşlar elektrotexniki norma və qaydaların tələblərini pozurlar ki, buna da yol vermək olmaz.

Bir çox yaşayış evlərində təbii və maye qazla işləyən müxtəlif cihazlardan istifadə olunur. Məişətdə işlənən qaz cihazlarından törənən yanğınların əsas səbəbi boru kəmərindən, qaz sobalarının odluqlarından qazın sızmasıdır. Mayeləşdirilmiş qaz təbii qazdan daha çox yanğın təhlükəli xassələrə malikdir. Qaz balonları qızdırıcı cihazlardan ən azı bir metr kənarda yerləşdirilməlidir. Belə balonları qızdırmaq, zirzəmidə saxlamaq qəti qadağandır. Mənzillərinizdə qaz sızmasını hiss etdikdə ümumi qaz kranını bağlamaq, mənzilin havasını təmizləmək üçün qapı-pəncərələri açaraq hava cərəyanı yaratmaq lazımdır. Bu zaman mənzillərdə elektrik işlədicilərini dövriyyəyə qoşmaq və ya dövriyyədən ayırmaq olmaz.

Qış mövsümündə bir çox yaşayış evlərində bərk yanacaqla işləyən sobalardan istifadə olunur. Sobalar qurularkən, həmçinin istismar edilərkən yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmalıdır. Yanğın təhlükəsizliyi standartlarının tələblərinə və texniki şəraitə cavab verməyən sobalardan istifadə olunmasına icazə verilmir.

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Muğan regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

# YENİ ŞEİRLƏR

## MƏNƏ ÜMİD VERİN

Hələ bu dünyanın iç üzü dalda,
Bir üzü öndədi, üç üzü dalda.
Tutun qolumdan ki, qalmayım yolda,
Mənə ümid verin, yaxşı adamlar.
İrişə-irişə qardaşım deyib,
Daldada qəbrimi qazanlarım var.
Qırmızı qələmlə adımı mənim
Qara dəftərlərə yazanlarım var,
Mənə ümid verin, yaxşı adamlar.
Bu günüm, dünənim, sabahım da siz,
Haqq işim, yuyulmaz günahım da siz,
Ümidim, güvəncim, pənahım da siz,
Mənə ümid verin, yaxşı adamlar.
Susuz da qalaram, ac da qalaram,
Yorğansız, döşəksiz yata da billəm.
Yolları kəndir tək yığıb əlimə
Dünyanı belimə çata da billəm, —
Mənə ümid verin, yaxşı adamlar.
Gündə min don geyib, min üz göstərən
Tülküdən, çaqqaldan qorxuram hələ,
Bu qoca dünyanın genişliyinə
Qapılar dalından baxıram hələ, —
Mənə ümid verin, yaxşı adamlar.
Mən kiməm, nəçiyəm, bilənim azdı,
Tapa bilməmişəm yerimi hələ.
İlk şeri vətənin adına yazdım
Yazmaqçün min vətən şerimi hələ,—
Mənə ümid verin, yaxşı adamlar.

## YAD ETDİKCƏ

Ömrümün məhəbbət, sevgi çağıdır,
Mənim bu eşqimin öz çələngi var.
Sanki məhəbbətim göy qurşağıdır, —
Yeddi bəzəyi var, yeddi rəngi var.
Bir gün nə oldusa şüşə könlümü
Kəsdin, parçaladın qəm almazıyla.
Çəkdin bilə-bilə şişə könlümü,
Az qaldı bədənim yanıb kül ola.
Elə bil səninlə gündə yanaşı
Duran mən deyildim — qolundan tutan.
Hər görüş zamanı, hər kəlməbaşı
Görəsən kim idi sənə deyən "can?"
Gəlməz o keçənlər heç vaxt ölçüyə,
Nə də yaddaşından silinər ömrün.
O eşq ayaqlara düşməsin deyə
Tutduq ayrılığı hər şeydən üstün.
Bir gün də ayrıldıq, dərdin ələmin
Qoşuntək yol alıb üstümə gəldi.
Qəlbimdə qüssənin, qəlbimdə qəmin
Təzədən sədası qalxdı, yüksəldi.
Haqladı bu hicran, bu həsrət bizi,
Niyə rəva bildik ayrılığı biz?
Sonradan gördük ki, bir-birimizi
Başa düşmək üçün çatmır səbrimiz.
Axı ötənləri bir xatirə tək
Anlamaq, yad etmək kimə gərəkdir?
Məhəbbət deyil tək özünü görmək,
Həm də o özünü dərk eləməkdir.
Nağıla bənzəyir o ötən günlər...
Qəlbimdə onların tək külü qalıb.
İndi o hicranlı, o itən günlər
Bənövşə boynu tək bükülü qalıb.
Daha biz pərişan bir cüt çiçəyik,
Ömrümüz mürgülü, yuxulu deyil.
Bəlkə də təzədən görüşəcəyik,
Sonra ayrılsaq da, qorxulu deyil.

## ÖZÜM OLMAQ İSTƏDİM

Dünyada hər şeyə əncam tapılar,
Bircə baxışların sual olmasın.
Dilsiz olanın da dili açılar,
Təki qəlbin dili qoy lal olmasın.
Heç nə istəmədim ulu dünyadan,
Dedim ki, nəyi var, qoy ona qalsın.
Ancaq çıxarmasın heç vaxt yadından,
Hərdən bir məni də bir yada salsın.
Arzudan arzuya qəlbim yol saldı,
O yolda bərkidi gücüm, qüvvətim.
İnamım, ümidim artdı, çoxaldı,
Doğuldu ilk eşqim, ilk məhəbbətim.
Qoşa addımladım bu dünya ilə,
Bəzən qoca oldum, bəzən də uşaq.
Bir bulaq suyunun zümzüməsiylə
Mənə layla çaldı bu yamac, bu dağ.
Bu layla səsini sevdim ürəkdən,
Ona bel bağladım, ona inandım.
Nə zaman dönəsi olsam külə mən
Bilin, bu laylanın oduna yandım.
Hər görüb eşidən gələcək haya,
Bu da bir xatirə, yaddaş olacaq.
Dərdimi desəm də qoca dünyaya
Xeyri yox, haçansa ömrüm solacaq.
Ancaq inanmadım bunlara belə,
Bunlar yuxu kimi görünür mənə.
Axı ömür yolum düşməyib hələ
Nə çiskin dumana, nə də ki, çənə.
Yaşadım ötəri, baxmadım ömrə
Çalışdım həyatda özüm olmağa.
Sevən ürəklərə, sevən qəlblərə
Şeirimlə su kimi axıb dolmağa.

## ƏSGƏR KİMİ

Yaranandan dünya ilə
Yaşayırlar qoşa dağlar.
Bar gətirən ağaclar tək
Veriblər baş-başa dağlar.
Neçə vaxtdır, neçə ildir
Yer üzündə dağdı dağlar.
Ölən ölüb, qalan qalıb
Ancaq yenə sağdı dağlar.
Qəlb oxşayan bu dağların
Alçağı var, ucası var,
Bir-birinə bənzəməyən
Cavanı var, qocası var.
Burda dağ var, tanınır o
Qiymətli daş-qaşı ilə.
Dağ da var ki, qürrələnir
Ömrü ilə, yaşı ilə.
Göy gurlasın, şimşək çaxsın,
Almazlar heç veclərinə.
Heç bir gücü tay, bərabər
Bilməzlər öz güclərinə.
Öz gücüylə, qüvvəsiylə
Sanki səngər qurub dağlar.
Bu dünyanın keşiyində
Əsgər kimi durub dağlar.

**Atamalı TALIBOĞLU**

**Ağaş MİRZƏZADƏ**

# ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayon Təhsil Şöbəsinin müdiri Əjdər Kərimov və şöbənin kollektivi Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı rayon komitəsinin sədri Asudə Cəfərovaya, atası

**HƏSƏN CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı rayon komitəsinin sədri Asudə Cəfərovaya, atası

**HƏSƏN CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktor H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03 Mobil: (050) 333-72-30, (055) 669-56-71 H/H: №AZ95AIIB33080019446400258164 VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "FUTBOL+SERVİS" mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 750 Sifariş №34 Bir nömrənin qiyməti: 40 qəpik.